09_27 IYUl-QARA.qxd 3/6/2025 10:42 PM Page 1

# UNIKAL

№09 (2239) 7 mart 2025-ci il

Qiyməti 50 qəpik

Qurucusu: Asəf Rzayev

www.unikal.az



# Azərbaycan-Türkiya müttəfiqliyinin yeni zirvəsi: Bütün güclər bu faktla hesablaşır



Səh.9

## Fuad Nağıyevi gözləyən böyük təhlükə

*Yola salmaq üzrə olduğumuz həftə Dövlət Turizm Agentliyinin (DTA) sədri Fuad Hümbət oğlu Nağıyevə işində yol verdiyi nöqsanlara görə şiddətli töhmət elan edildi. Bununla bağlı ölkə başçısı Sərəncam imzalayıb. Bu ilin iyulunda 50 yaşı tamam olacaq Fuad Nağıyev Bakı şəhərində anadan olub və paytaxtdakı 23 saylı orta məktəbdə təhsil alıb. O, 1992-1997-ci illərdə Bakı Dövlət Universitetinin Hüquq fakultəsində oxuyub. Təhsilini 1997-2000-ci illər ərzində AR Elmlər Akademiyası Fəlsəfə və Hüquq İnstitutunun aspirantı kimi davam edib. 1998-ci ilin sentyabr-noyabr aylarında İngiltərənin Birminhem Universitetində Avropa Şurasının İnsan hüquqları üzrə hüquq və təcrübə proqramında təhsil alıb. 2004-2006-cı illərdə Aeroport Qeyt Biznes Aviasiya şirkətində xidmət və şöbə rəisi, 2006-2009-cu illərdə...*

Səh.8

## "Boşanmaların sayının artması ciddi problemdir"



*Milli Məclisin deputatı Ceyhun Məmmədov "Unikal"a müsahibə verib. O, Aliment Fondunun yaradılması ilə bağlı təkliflərdən, boşanmaların sayının artmasından, repetitorluğun nə zaman ləğv ediləcəyindən, müəllimlərin təqaüd yaşının artırılmasından və s. məsələlərdən danışıb.*

Səh.4

## Azərbaycanda ehtiyatda olan hərbçilər orduya çağırıldı



*2025-ci ilin hazırlıq planına əsasən, Səfərbərlik və Hərbi Xidmətə Çağırış üzrə Dövlət Xidməti ilə birgə tədbirlər çərçivəsində hərbi hissələrdə ehtiyatdan çağırılan bir qrup hərbi vəzifəlinin cəlb edildiyi növbəti təlim toplanışı başlayıb. "Unikal" xəbər verir ki, bu barədə Müdafiə Nazirliyindən məlumat verilib.*

Səh.2

## Arif Hacılıdan Etibar Məmmədova cavab



*Müsavatın Məclis sədri: "O, AXC-dən ayrılanda süverenlik məsələsi artıq keçilmiş mərhələ idi" Azərbaycan Milli İstiqlal Partiyasının (AMİP) lideri Etibar Məmmədov Azərbaycan Xalq Cəbhəsindən fikir ayrılığına görə çıxıdığını deməsi müzakirə mövzusuna çevrilib. O, modern.az-a müsahibəsində*

Səh.6

09_27 IYUl-QARA.qxd 3/6/2025 7:48 PM Page 2



# Ağadadaş Ağayevə hökm oxundu



***Xalq artisti Ağadadaş Ağayevin ittiham olunduğu cinayət işi üzrə məhkəmə prosesi yekunlaşıb.***

"Unikal" xəbər verir ki, Binəqədi rayon Məhkəməsində hakim Vüsal Tağıyevin sədrliyi ilə keçirilən prosesdə hökm oxunub.

Hökmə əsasən, Ağadadaş Ağayev xuliqanlıqda təqsirli bilinərək ona 2 il azadlıqdan məhrum etmə cəzası təyin edilib.

Cinayət Məcəlləsinin 70-ci (şərti məhkum etmə) maddəsi tətbiq edilməklə 1 il sınaq müddəti hesab edilməklə şərti hesab olunub.

Qeyd edək ki, ötən ilin iyul ayında xalq artisti Ağadadaş Ağayevlə "Medera Hospital"ın mühafizəçisi Nurəddin Cəlilov arasında insident baş verib. Ağadadaş Ağayev mübahisə etdiyi mühafizəçiyə balta atıb, balta klinikada çalışan N. Paşayevaya dəyərək xəsarət yetirib. Mühafizəçi Nurəddin Cəlilov isə Xalq artistini döyüb. Ağadadaş Ağayev "Medera Hospital"ı mülki hüquq pozuntularından yaranan öhdəliklər üzrə mübahisələr - mənəvi zərərin ödənilməsi üçün məhkəməyə verib. Öz növbəsində, "Medera Hospital"ın rəhbəri Qaraxan Əliyev də Ağadadaş Ağayevə qarşı iddia qaldırıb. Müğənni mənəvi ziyana görə klinikadan 450 min manata yaxın, hospital isə Ağadadaş Ağayevdən 500 min manat pul tələb edib.

Yanvarın 8-də Xalq artisti Ağadadaş Ağayevlə hospital, mühafizəçi və xadimə arasında barışıq əldə olunub.

Daha sonra Binəqədi Rayon Məhkəməsində keçirilən prosesdə məhkəmə Xalq artisti Ağadadaş Ağayevin "Medera Hospital"a qarşı mülki iddiasına xitam verilməsi barədə qərar çıxarıb.

# Əməkdar artist keçmiş həyat yoldaşı ilə: əsl peşəkarlar düşmən olsalar belə...



***Əməkdar artist Hüsniyyə Mürvətova keçmiş həyat yoldaşı Cavid Təvəkkül ilə bağlı paylaşım edib.***

Aktrisa əri ilə tədbirlərin birində çəkilən fotosunu sosial şəbəkədə yayımlayıb.

Hüsniyyə Mürvətova Cavid Təvəkkül ilə görüşünü bu sözlərlə nəql edib: "Cavidlə sonuncu şəklimiz səhv etmirəmsə, 2006 cı ildə olmuşdu. 2025 ci il "Spinozanın Tanrısı" bizi bir araya gətirdi. Əsl peşəkarlar düşmən olsalar belə sənətə görə bir araya gələrlər. Nəzərə alsaq ki, biz düşmən deyilik. O mənim oğlumun atasıdır. Cavidin uğurları məni həmişə sevindirib. Eləcə də mənim uğurlarım onu.Yaşasın sənət, sənətə xidmət edən peşəkar insanlar". Qeyd edək ki, 2000-ci ildə C.Təvəkkül ilə ailə həyatı quran aktrisa 6 ildən sonra boşanıb. Cütlüyün Orxan adlı bir oğlan övladı var.



# "Sevda, uşaqlar hər axşam evi "bombalayırlar""

***Müğənni Sevda Yahyayevanın həyat yoldaşı, həkim - genetik Zakir Bayramov iki qız övladı Ayla və Aida ilə bağlı maraqlı paylaşım edib.***

Sənətçinin əri uşaqlarının oyuncaqlarla oynayarkən çəkdiyi videonu instaqram səhifəsində yayımlayıb.

Görüntülərdə onların oyuncaqları yerə tökdüyü və evin səliqəsini pozduğu əks olunub.

Həmin kadrlara arvadı Sevdanın adını işarələyən Zakir "Sevda, uşaqlar hər axşam evi "bombalayırlar". Onlar evi sökürlər" şərhini yazıb. /Olay.az

# "Aynur Dadaşova çox qısqancdır"

***Müğənni İzzət Bağırov duet ortağı Aynur Daddaşovanı qısqanc adlandırıb.***



Sənətçi bu haqda "Qonaqcanlı" verilişində deyib. O bildirib ki, A.dadaşova hamını qısqanır: "Çox qısqanc adamdı. Xasiyyəti belədir. 1992-1995-ci illərdə bölgələri gəzib, konsertlər verirdik. Pərəstişkarlarımız olurdu. Hər şeyi qısqanan adamdı. İstəyir ki, hər şey ona məxsus olsun".

A.Dadaşova isə "Dostlarımı, rəfiqələrimi, balalarımı da qısqanıram" deyə, cavab verib.

# Ayan və Kəmalə məşhur trendə qoşuldu

***Müğənni Ayan Babakişiyeva və aparıcı Kəmalə Piriyeva son günlər sosial şəbəkədə gündəm olan "Türkish delight" trendinə qoşulublar.***

Axşam.az xəbər verir ki, tanınmışlar türkiyəli məşhur aktrisa Türkan Şorayın makiyajını təkrarlayıblar.

Ayan qara geyimdə obyektiv qarşısına keçərək çəkdirdiyi videonu instaqram hesabında yayımlayıb və "İncimə, iş işdən keçib" sözlərini yazıb. Kəmalə də makiyajı özü edib və "Mən də yoxladım" şərhi ilə yayımlayıb.

Qeyd edək ki, "Turkish delight" adı ilə trend olan makyaj növünün adı türk şirniyyatı lokumdan götürülüb. Bu makiyaj trendi nostalji və mürəkkəb görünüş yaratmaq məqsədi daşıyır, 1960-70-ci illərin məşhur türk kino ulduzlarından biri olan Türkan Şorayın klassik makiyaj tərzindən ilhamlanıb.

# Hadisənin Bakı konsertinin qiyməti bəlli oldu

***Türkiyəli məşhur müğənni Hadisə Bakıya gələcək.***

Bu barədə "İticket.az" saytında məlumat yerləşdirilib. Hadisə konserti 9 may 2025-ci ildə Bakı Konqres mərkəzində keçiriləcək.

Konsert üçün biletin qiyməti minimum 40, maksimum 360 manatdır.

09_27 IYUI-QARA.qxd 3/6/2025 7:48 PM Page 3



# Fuad Nağıyevi gözləyən böyük təhlükə

## Dövlət Turizm Agentliyinin rəhbəri həbs qorxusu yaşayır; ortada milyonlarla manatlıq müəmmalar dolaşır - Sensasion detallar!

***Yola salmaq üzrə olduğumuz həftə Dövlət Turizm Agentliyinin (DTA) sədri Fuad Hümbət oğlu Nağıyevə işində yol verdiyi nöqsanlara görə şiddətli töhmət elan edildi. Bununla bağlı ölkə başçısı Sərəncam imzalayıb.***

Bu ilin iyulunda 50 yaşı tamam olacaq Fuad Nağıyev Bakı şəhərində anadan olub və paytaxtdakı 23 saylı orta məktəbdə təhsil alıb.

O, 1992-1997-ci illərdə Bakı Dövlət Universitetinin Hüquq fakultəsində oxuyub. Təhsilini 1997-2000-ci illər ərzində AR Elmlər Akademiyası Fəlsəfə və Hüquq İnstitutunun aspirantı kimi davam edib.

1998-ci ilin sentyabr-noyabr aylarında İngiltərənin Birminhem Universitetində Avropa Şurasının İnsan hüquqları üzrə hüquq və təcrübə proqramında təhsil alıb. 2004-2006-cı illərdə Aeroport Qeyt Biznes Aviasiya şirkətində xidmət və şöbə rəisi, 2006-2009-cu illərdə "Paşa İnşaat" MMC-nin direktoru, 2007-2009-cu illərdə "Bakı Dəmir-Beton-8" ASC-də baş direktor vəzifələrində çalışıb.

Nağıyev 2010-2014-cü illərdə Azərbaycan Respublikasının Mədəniyyət və Turizm Nazirliyinin hüquq sektorunda böyük məsləhətçi kimi fəaliyyət göstərib və "2-ci dərəcə dövlət qulluqçusu" ixtisas dərəcəsinə sahib olub. 2014-2017-ci illər ərzində "1-ci dərəcə dövlət qulluqçusu" ixtisas dərəcəsi ilə nazir köməkçisi vəzifəsində çalışıb. 2017-ci ilin fevralından Milli Turizm Təbliğat Bürosu publik hüquqi şəxsin direktoru olub.

O, hüquq elmləri namizədidir. Rus və ingilis dillərini bilir.

### "Şiddətli töhmət" alan məmurların siyahısı...

Bu yerdə haşiyə çıxaraq qeyd edək ki, dövlət başçısı məmurlarla bağlı bu cəza tədbirindən nadir hallarda istifadə edir. Bir az da dəqiqləşdirsək, bu, praktikaya 2-3 ildən bir rast gəlinir.

"Bakupost"un araşdırmasına görə, bundan əvvəl Prezident 21 aprel 2020-ci ildə İsmayıllı Rayon İcra Hakimiyyətinin başçısı Nahid Rza oğlu Bağırova Azərbaycan ərazisində koronavirus infeksiyasının (COVİD-19) yayılmasının qarşısının alınması məqsədilə tətbiq olunmuş xüsusi karantin rejimi qaydalarını pozduğuna görə töhmət elan edib.

21 avqust 2017-ci ildə isə prezidentin sərəncamı ilə Azərbaycan Respublikası Prezidentinin İşlər müdiri Oqtay Qəşəm oğlu Şahbazova xidməti vəzifəsinin icrasında yol verdiyi nöqsana görə töhmət elan edilib.

Son illər töhmət alan şəxslər arasında YAP-çı deputat Siyavuş Novruzov da var. Belə ki, ona da COVİD-19 pandemiyasının yayılması və əhalinin sağlamlığının qorunması məqsədilə Azərbaycan Respublikası Nazirlər Kabineti yanında Operativ qərargahın tətbiq etdiyi karantin rejiminin tələblərini kobud surətdə pozduğuna görə Yeni Azərbaycan Partiyası tərəfindən töhmət elan edilib.

Onu da deyək ki, o zaman keçmiş deputat, Ramiz Mehdiyevin kürəkəni İlham Əliyevin Operativ Qərargahın və hökumətin qərarına zidd olaraq karantin günlərində övladına toy etməsi ictimaiyyətin kəskin narazılığına səbəb olmuşdu. Toya Siyavuş Novruzov və həyat yoldaşı, Ombudsman Səbinə Əliyeva da qatılmışdı.

### Fuad Nağıyevə verilən töhmətin pərdəarxası...

Dövlət Turizm Agentliyinin rəhbərinə verilmiş töhmətə gəlincə, bununla bağlı bəzi detallar məlum olub. Məsələ burasındadır ki, ölkə başçısının töhmətlə bağlı Sərəncamının ardınca adı çəkilən Aparat rəhbəri vəzifəsindən uzaqlaşdırılıb. "Modern.az"ın əldə etdiyi məlumata görə, Aparat rəhbəri Kənan Qasımov işdən çıxarılıb. Buna səbəb kimi DTA-da son baş verən hadisələr göstərilir.



Bir az da dəqiqləşdirsək, Fuad Nağıyevə işində yol verdiyi nöqsanlara görə şiddətli töhmət elan edilməsinin ardından yayılan iddialara görə, Dövlət Turizm Agentliyində Azərbaycana qarşı daim düşmənçilik mövqeyi bəsləyən "Transparency International" təşkilatında işləmiş və ya bu təşkilatla əməkdaşlıq edən şəxslər müəyyənləşdirilib. "Dövlət Turizm Agentliyində Fuad Nağıyevin ətrafı davamlı şəkildə xidməti məlumatları müxtəlif təşkilatlara, şəxslərə sızdırıblar", - iddialarda deyilir.

Qeyd edək ki, Kənan Qasımov 2009-2014-cü illərdə "Transparency International/Azerbaijan" təşkilatında müxtəlif vəzifələrdə çalışıb. O, 2015-ci ilin may-sentyabr aylarında BMT-nin Nyu-Yorkdakı baş qərargahında yerləşən BMT Baş katibinin Gənclər üzrə səfirinin ofisində fəaliyyət göstərib.

2017-ci ilin fevral ayından 2018-ci ilin aprel ayına kimi Milli Turizm Təbliğat Bürosunda Monitorinq və Keyfiyyətə nəzarət şöbəsinin müdiri vəzifəsində işləyib. 2018-ci ilin oktyabrından Azərbaycan Respublikasının Dövlət Turizm Agentliyinin Aparat rəhbəri vəzifəsində çalışıb.

O, ABŞ Dövlət Departamentinin "Fulbright" və "Edmund S.Muskie" Təqaüd Proqramlarının, eləcə də "Arden J.Elsasser Memorial Award" mükafatının qalibidir.

### Agentlik rəhbərinə istintaq şoku

Ən son məlumatlara görə, Dövlət Turizm Agentliyinin sədri Fuad Nağıyev istintaqa çağırılıb.Fuad Nağıyevlə yanaşı, qurumda işləyən bir sıra şəxslər də istintaqa cəlb edilib.

"Dövlət Turizm Agentliyinin vəzifəli şəxsləri ilə bağlı aparılan araşdırma xidməti sənədlərin sızdırılması ilə yanaşı, agentlikdəki korrupsiya faktları ilə də bağlıdır", - məlumatda vurğulanıb.

"Unikal"ın araşdırması nəticəsində aydınlaşıb ki, DTA-da korrupsiya araşdırması təəccüb doğurmur. "Bu qurumda xüsusilə tenderlərlə bağlı ciddi şübhələr mövcuddur. Təsəvvür edin ki, Agentlik öz aparatının görməli olduğu işləri hansısa hüquqi və fiziki şəxslərə həvalə etməklə son illərdə külli miqdarda dövlət vəsaitini faktiki olaraq havaya sovurmaqla məşğul olub. Bu sırada hamamların turizm məhsuluna çevrilməsi, yaxud qonaq evlərinin qiymətləndirilməsi, xəritə və bazanın yaradılması, ya da Bakıda və regionlarda yemək masterklasslarının həyata keçirilməsi ilə bağlı məsləhət xidmətlərinin alınması var. Bir sözlə, Fuad Nağıyevin rəhbərlik etdiyi qurum absurd "məsləhətçilərə" son bir neçə ildə milyonlarla manat xərcləyib, lakin həmin satınalmaların həm obyektivliyi və şəffaflığı, həm də effektivliyi ciddi mübahisə elementidir" deyə qəzetimizə daxil olan məlumatda vurğulanır.

### 2 həftədə 5 milyon manatlıq sifarişin pərdəarxası

Məlumatlı mənbələrdən "Unikal"a bildirildiyinə görə, ötən ilin sonlarında DTA növbəti dəfə şübhəli dövlət satınalmasına imza atıb. Belə ki, 2024-cü il dekabrın sonlarında Agentlik növbəti tender müsabiqəsinə yekun vurub. Tender Lahıc qəsəbəsində yerləşən Lahıc Dövlət Tarixi-Mədəniyyət Qoruğunun abadlaşdırılması işlərinin satınalınması ilə bağlı olub. Satınalma müsabiqəsinin qalibi isə "Ricon" MMC elan edilib. Həmin vaxt bildirilib ki, tərəflər arasında imzalanacaq satınalma müqaviləsinin dəyəri 1 milyon 336 min 378 manatdır.

İlginc məqam isə ondan ibarətdir ki, "Ricon" MMC elə həmin ayın 12-də də Dövlət Turizm Agentliyinin daha bir tenderinin qalibi olub. Söhbət Daşaltı kəndində turizm infrastrukturunun yaradılması ilə bağlı satınalma müsabiqəsindən gedir. Bu tender nəticəsində adı çəkilən şirkətlə Agentlik arasında 3 milyon 607 min 758 manat dəyərində satınalma müqaviləsi bağlanmışdı. Bununla da, Agentlik iki həftə ərzində bir şirkətə 4 milyon 944 min 136 manat məbləğində sifariş verib.

Daha bir maraqlı məqam 2006-cı ildə yaradılan və DTA-dan milyonlarca manatlıq sifariş alan şirkətin nizamnamə kapitalının cəmi 20 manat olması, ən əsası da onun barəsində açıq mənbələrdə yetərincə təfərrüatlı bilgilərin olmamasıdır.

### Fuad Nağıyev həbs edilə bilər?

"Unikal"a daxil olan məlumatlarda DTA-nın tenderləri ilə bağlı müəmmalı məqamların kifayət qədər çox olmasına diqqət çəkilir. Üstəlik, həmin dövlət satınalmaları yetərincə iri məbləğlərlə müşayiət olunur.

Digər tərəfdən, Agentliyin zərərlə işləməsi də bu qurumda yarıtmaz idarəçiliyin hökm sürməsindən xəbər verir. Məsələn, DTA cari ilin 18-20 mart 2025-ci il tarixlərində Moskvada keçiriləcək "MITT 2025" turizm sərgisində açar təhvili üsulu ilə sərgi stendinin quraşdırılması ilə bağlı 134 min 286,36 manatlıq tender keçirib. Berlində keçirilən, martın 6-na qədər davam edəcək "ITB Berlin 2025" turizm sərgisində açar təhvili üsulu ilə sərgi stendinin quraşdırılmasına isə 295 min 565,22 manat xərcləməyi planlasa da müqavilədə 79 min 370 manata razılaşıb.

2025-ci ilin 23-25 fevral tarixlərində İtaliyanın Bolonya şəhərində keçirilən stendin məzmununun tərtibatı, eləcə də ölkəmizin yerli üzüm sortlarından hazırlanan icma şərabçılığının potensialının "Slow Wine" koalisiyasının prinsiplərinə əsasən araşdırılması xidmətləri ilə bağlı isə "Fondazıone Slow Food E.T.S." şirkəti ilə 107 min 535,73 manat dəyərində müqavilə imzalayıb.

Sadalanan bahalı təbliğatların fonunda Azərbaycana cari ilin yanvar ayında 172 min 653 xarici vətəndaş və vətəndaşlığı olmayan şəxs səfər edib. Bu da cəmi 4% artım deməkdir.

Bir məqamı da vurğulayaq ki, Hesablama Palatasının rəylərində, hesabatlarında Dövlət Turizm Agentliyinin adına rast gəlmək mümkün deyil.

Digər mühüm məsələ agentliyə məxsus "Şahdağ Turizm Mərkəzi"nin illərdir zərərlə işləməsidir. 2023-cü ildə dövlət büdcəsindən 11,777 milyon manat vəsait alan mərkəz hesabat dövrünü 6,682 milyon manat zərərlə başa vurub. Dövlət şirkətinin yığılmış zərəri 6,9% artaraq 103,859 milyon manata çatıb.

2024-cü ilin yanvarın 1-nə "Şahdağ Turizm Mərkəzi"nin aktivləri 214,159 milyon manat olub ki, bu da illik müqayisədə 29,1% azdır. Hesabat dövründə səhmdar cəmiyyətinin öhdəlikləri 3,5 dəfə azalaraq 0,534 milyon manata, balans kapitalı isə 28,9% azalaraq 213,625 milyon manata düşüb.

Bütün sadalananları nəzərə alan qaynaqlar həm Fuad Nağıyevə şiddətli töhmət verilməsinə, həm də onun istintaqa çağırıldığı yönündə xəbərlərə diqqət çəkərək Agentlikdə geniş miqyaslı yoxlamaların başlaya biləcəyini vurğulayırlar. Belə hesab edilir ki, proses yaxın vaxtlarda Nağıyevin həm vəzifəsini, həm də azadlığını itirməsi ilə yekunlaşa bilər. Sözügedən ehtimalın reallaşıb-reallaşmayacağını isə zaman göstərəcək. Hələliksə görünən odur ki, DTA rəhbərini qarşıda kifayət qədər məşəqqətli günlər gözləyir...

***Sənan Mirzə***

# Azərbaycan-Türkiyə müttəfiqliyinin yeni zirvəsi: Bütün güclər bu faktla hesablaşır

***Xəbər verildiyi kimi, Azərbaycan Respublikasının Prezidenti cənab İlham Əliyev martın 5-də İğdır-Naxçıvan qaz boru kəmərinin açılış mərasimində iştirak etmək üçün Türkiyə Respublikasına səfər edib. Açılış mərasimində qardaş ölkənin liderləri çıxış edərək mühüm mesajlar veriblər.***

Milli Məclisin deputatı Sahib Alıyev məsələylə bağlı fikirlərini "Unikal"a bildirərkən öncə Ermənistan baş naziri Nikol Paşinyanın son məqaləsinə reaksiya verib. Onun sözlərinə görə, Paşinyanın Zəngəzur dəhlizini gözardı edən və öz ağlınca Azərbaycanla Türkiyə arasında maraq toqquşması yaradacaq məqaləsinə ən böyük cavab Əliyev-Ərdoğan görüşüdür: Ümid etmək istərdim ki, Ermənistan baş naziri həmən görüşdə cənab İlham Əliyevin səsləndirdiyi və ardınca X-də sayın Rəcəb Tayyib Ərdoğanın yazdığı fikirlərin nə anlam daşıdığından düzgün nəticə çıxaracaq.

Gəlin, cənab İlham Əliyevin dediyinə diqqət yetirək: "Bildiyiniz kimi, Naxçıvan qədim Azərbaycan torpağıdır. Ancaq artıq bir əsrdən çoxdur ki, Azərbaycanın əsas hissəsindən ayrılıb. Bunun səbəbi ondan ibarətdir ki, Azərbaycan Xalq Cümhuriyyəti 1920-ci ildə süqut edəndən beş ay sonra sovet hakimiyyəti Qərbi Zəngəzuru Azərbaycandan ayırıb Ermənistana birləşdirdi və beləliklə, Azərbaycanın əsas hissəsi ilə onun ayrılmaz hissəsi olan Naxçıvanla quru bağlantısı pozulub. Bir əsrdən çox davam edən bu ədalətsizlik Naxçıvanda yaşayan bizim soydaşlarımızın həyatına çox mənfi təsir göstərmişdir".

Azərbaycan Prezidentinin bir vaxtlar nəyi ədalətsizlik adlandırdığını və onun necə aradan qaldırıldığını işğalçı ölkədəkilər yəqin unutmayıb.

İndi də sayın Ərdoğanın X-də dövlət başçımızın Ankaraya səfəri ilə bağlı yazdıqlarına baxaq:" Mənə qardaşımı, Azərbaycan Prezidenti İlham Əliyevi Türkiyədə qəbul etmək çox xoş oldu. Biz "Bir millət, iki dövlət" şüarı çərçivəsində qardaşlıq əlaqələrimizin bütün sahələrində müdafiədən tutmuş ticarətədək böyük məsafə qət etmişik. İnşallah bundan sonra regional sülhə, rifaha və hüzura yönəlik hər cür layihələri birlikdə həyata keçirməkdə qərarlıyıq".

Paşinyan da, Ermənistanla "min illik sərhəd"dən dəm vuranlar da Türkiyə Prezidentinin Azərbaycanla əlaqələrdən bəhs edərkən müdafiə sahəsini nədən birinci yazdığının yəqin fərqindədirlər. Və onlar anlamamış deyillər ki, regional sülhə yönəlik hər cür layihələr deyərkən ilk növbədə Zəngəzur kommunikasiya dəhlizi nəzərdə tutulur. Naxçıvan-İqdır qaz kəmərinin işə düşməsi, Qars-Naxçıvan dəmir yolunun çəkilişi üçün hazırlıqlara başlanması Azərbaycanın sadəcə bir bölgəsi ilə Türkiyə arasında əlaqələr üçün deyil. Və mən burada İğdır-Naxçıvan qaz kəmərini heç də səbəbsiz Naxçıvan-İğdır kimi təqdim etmirəm. Fikrimcə, gələcəkdə bu kəmərlə İğdırdan Naxçıvana deyil, Naxçıvandan İğdıra qaz ötürüləcək. Naxçıvana isə o qaz Zəngəzur dəhlizindən keçməklə çatdırılacaq".

Millət vəkili onu da qeyd edib ki, Zəngəzur dəhlizinin İrandan keçən Arazboyu yolla eyni şərtlər çərçivəsində fəaliyyət göstərə biləcəyini deyən Ermənistan baş naziri bir neçə reallığı unudur ki, onlardan da biri azərbaycanlı faktorudur: "İrandan keçəcək yolun dörd bir tərəfində ancaq bizim soydaşlarımız yaşayır. Zəngəzur dəhlizi boyunca da uzun əsrlər kimlərin yaşadıqlarını Paşinyan çox gözəl bilir. Bilmirsə, yetirməsi olduğu Levon Ter-Petrosyanın 1993-cü il iyulun 23-dəki çıxışına bir də qulaq assın. O, Ermənistanın keçmiş prezidentinin yurdlarından didərgin saldıqlarını fəxrlə bildirdiyi Qərbi Azərbaycan kökənlilərin geri dönmələrinə razıdırmı? Bu suala veriləcək cavab aydındır və açığı, bizim üçün elə də önəmli deyil. Çünki Zəngəzur dəhlizi də işə düşəcək, Qarabağa, Şərqi Zəngəzura qayıtdığımız kimi Qərbi Zəngəzurdakı yurd yerlərimizə də qayıdacağıq".



Siayi şərhçi, Sosial Tədqiqatlar Mərkəzinin aparıcı məsləhətçisi Aqşin Kərimov fikirlərini bölüşərkən deyib ki, İğdır-Naxçıvan qaz boru kəməri regional enerji xəritəsinin tərtibində mühüm əhəmiyyət kəsb edərək Naxçıvan Muxtar Respublikasının Azərbaycanın digər əraziləri ilə əlaqəsində dönüş nöqtəsini təqdim edir: "Prezident İlham Əliyev İğdır-Naxçıvan qaz kəmərinin videobağlantı formatında açılışında deyib ki, layihə Naxçıvanın enerji təhlükəsizliyini təmin edəcək. Azərbaycandan gələn qaz Türkiyə ərazisindən svop şəklində Naxçıvana ötürülərək, artıq Naxçıvanı enerji problemindən xilas etmiş olacaq. Türkiyə Prezidenti Rəcəb Tayyib Ərdoğan bildirib ki, İğdır-Naxçıvan təbii qaz boru kəməri enerji sahəsində Azərbaycanla daha əvvəlki strateji təşəbbüsləri tamamlayacaq, həmçinin Naxçıvan ilə ortaq taleyin bir nişanəsi olacaq. BOTAŞ tərəfindən inşa edilən 80 kilometr uzunluğunda, gündəlik 2 milyon kubmetrə qədər nəqletmə qabiliyyətinə malik bu kəmər xüsusilə Naxçıvanın təbii qaz ehtiyacının hamısını ən azı 30 il müddətində təmin edəcək.

Layihə Azərbaycandan gələn qazın Türkiyə ərazisindən svop şəklində Naxçıvana ötürülməsi ilə reallaşır. Göründüyü kimi, bu layihə Azərbaycan və Türkiyənin əvvəlki illərdə həyata keçirdiyi enerji və nəqliyyat layihələrinin (Bakı-Tbilisi-Ceyhan, Bakı-Tbilisi-Ərzurum, Bakı-Tbilisi-Qars dəmir yolu layihəsi, TANAP) məntiqi davamı olaraq müttəfiqlik geosiyasətinə yeni rəng verəcək. Azərbaycan və Türkiyə strateji müttəfiqliyi ümumi planda enerji və geosiyasətin birləşməsini regional sabitliyin meyarı kimi təşviq edir. Enerji diplomatiyası Cənubi Qafqazdakı maraqların kəsişməsində çətinlikləri və imkanları izləmək fonunda xüsusi bir dəyər qazanır. Beləliklə, Azərbaycan və Türkiyə yaranan riskləri müəyyən etmək, regional enerji mənzərəsinin təhlükəsizlik mühitinə təsirləri haqqında daha aydın təsəvvür yaratmaq üçün tendensiyalar üzərində işləyir".

Müsahibimiz səfərin Azərbaycan-Ermənistan münasibətləri kontekstində əhəmiyyəti barədə də fikirlərini bildirib. "Səfər zamanı Ankarada Azərbaycan və Türkiyə liderlərinin təkbətək görüşü olub. Görüşə İkinci Dünya müharibəsindən sonra formalaşmış institutların, təhlükəsizlik arxitekturalarının dağılması və qlobal nizamsızlığın hökm sürdüyü şəraitdə konseptual qiymətləndirmə vermək olar. Hazırkı çoxqütblü dünyanın üç böyük gücünün - ABŞ, Rusiya və Çinin ambisiyaları, nüfuz dairələrini formatlamaq uğrundakı mübarizələri və sövdələşmələri bütün regionlara təsirlərini göstərir. Liderlərin müzakirələri həm də üç qlobal mərkəzin Cənubi Qafqaz, Yaxın Şərq, Mərkəzi Asiya, Transatlantik məkan üzərindəki maraqları ilə diqqət çəkir. Cənubi Qafqaz ABŞ ilə Rusiyanın Ukraynadakı müharibə üzərindən qurduğu sövdələşmə mexanizmindən, Çinin buna verə biləcəyi reaksiyalara regional həssaslığını saxlayır. Azərbaycanla Türkiyə buna görə də resursların daha sıx birləşdirməyi, strateji qüdrətini daha da artırmaq imkanlarını müzakirə etmək üçün prezidentlərin müzakirələrini aktuallaşdırır"- deyə A.Kərimov əlavə edib.

Onun fikrincə, Bakı ilə Ankara arasındakı ali səviyyəli müzakirələr qlobal və regional çağırışların effektiv həlli üçün yol xəritəsini hazırlayır: "İlk növbədə, Azərbaycan və Türkiyə, ABŞ, Rusiya və Çin arasındakı faktiki bölgülərin yarada biləcəyi atmosferə səmərəli və faydalı əməkdaşlıq niyyətləri ilə daxil olmağı hədəfləyir. Bu baxımdan Türk Dövlətləri Təşkilatı Azərbaycanla Türkiyənin həm geoiqtisadi, həm geosiyasi, ümumilikdə isə strateji manevr imkanlarını çevikləşdirən səhnədir. TDT çərçivəsindəki iqtisadi məhsuldarlıq, türk dövlətləri daxilindəki bütün sahələr üzrə həmrəylik Avrasiya geosiyasətindəki təhlükəsizlik indikatoru kimi çıxış edir. Lakin TDT üzrə tamamlanacaq işlər də var ki, bu da Azərbaycanın strateji layihəsi olan Zəngəzur dəhlizi ilə əlaqəli şəkildə üzə çıxır. Bu mənada Azərbaycan-Ermənistan münasibətlərinin normallaşması prosesi, sülh gündəliyi və onların Zəngəzur dəhlizi parametrlərindəki nişanələri xüsusi əhəmiyyət kəsb edir. İkincisi isə Azərbaycanla Türkiyənin müttəfiqlik əlaqələri və hərbi-texniki əməkdaşlıq modeli güclü çəkindiricilik qabiliyyətinə malikdir. Regionda ambisiyalar formalaşdırmaq istəyən bütün güclər bu faktla hesablaşırlar. Ermənistanın isə regional izolyasiyası və silahlanmasına rəğmən Azərbaycanın yaratdığı geosiyasi reallıqları geri oxuda bilmək qabiliyyətindən məhrum olması onun qarşısına sülh gündəmində layiqli tərəf olmaq seçimini qoyur.

Çünki Azərbaycan və Türkiyə strateji ittifaqı fonunda:

- TDT və ikitərəfli münasibətlər zəminində yeni dünya nizamında yüksəliş dövrünü yaşayan Çinlə müttəfiqlik əlaqələri yaranır. Bu, qiymətli Transxəzər Beynəlxalq Nəqliyyat Marşrutunda rol alan (Orta Dəhliz) Azərbaycanın, Qazaxıstanın və Türkiyənin əhəmiyyətini gücləndirir;
- ABŞ Prezidenti Donald Tramp administrasiyasının yürütdüyü siyasətə uyğun şəkildə Vaşinqtonla əlaqələrdə yeni səhifənin açılacağı ehtimalları güclənir. Bunun fonunda ABŞ ilə Ermənistan arasında imzalanmış Strateji Tərəfdaşlıq Xartiyasının İrəvan üçün effektivliyi və praktiki əhəmiyyəti qalmır;
- Türkiyə NATO-nun güclü orduya və döyüşən canlı qüvvəyə malik ölkəsi kimi Qərblə əlaqələrindəki problemlərini aradan qaldırır. Bu, Azərbaycanın da NATO ilə əməkdaşlıq kanallarının şaxələnməsində böyük üstünlüklər yaradır;
- Rusiya ilə əlaqələrdə bərabərtərəfli hüquq və təhlükəsizlik bölgüsünə əsaslanan münasibətlər sistemi qurulub və Moskva Bakı-Ankara müttəfiqliyi ilə əlaqələrdə üzləşdiyi geosiyasi risklərə görə xüsusi əhəmiyyət verir,
- Yaxın Şərqdə strateji olaraq zəifləmiş İran Cənubi Qafqazdakı siyasətini Bakı-Ankara müttəfiqliyi ilə uyğunlaşdırılmış şəkildə qurmağa məcburdur.

Donald Tramp administrasiyasının da İranla bağlı strategiyası Tehranı region ölkələri ilə əməkdaşlığa təşviq edir və burada artıq Ermənistanla bağlı qırmızı xətlər unudulur. Göründüyü kimi, Ermənistanın qlobal və regional proseslərdəki onsuz da zəif olan mövqeləri daha təhlükəli vəziyyətlə üzləşir.Belə olduğu təqdirdə, Ermənistanın təhlükəsizlik qarantiyası üçün Azərbaycan və Türkiyə strateji müttəfiqliyinə müraciəti İrəvanın gələcəyi baxımından ağlabatan olardı. Hərçənd ki, Ermənistan hələ nə Zəngəzur dəhlizi ilə əlaqədar konstruktiv mövqe sərgiləyir, nə də Azərbaycanla sülh gündəliyinə birdəfəlik sadiqlik göstərir".

A.Kərimov hesab edir ki, Azərbaycan və Türkiyə liderlərinin görüşündən bu nəticələri çıxarmaq olar: "Birincisi, İğdır-Naxçıvan qaz kəmərinin açılışı iki dövlətin geosiyasət və enerji təhlükəsizliyindəki gələcək istiqamətlərə hərtərəfli baxışının ifadəsidir. İkincisi, Azərbaycan və Türkiyə çox geniş kontekstdə regional və qlobal portfelləri müzakirə predmetinin mərkəzinə gətirməklə kəskin qütbləşməyə məruz qalan dünyada imkanlarını inkişaf etdirir. Üçüncüsü, Azərbaycan və Türkiyə Ermənistanla münasibətlərin perspektivini regional təhlükəsizlik gündəminə uyğunlaşdıraraq İrəvanı sülhə tələsdirirlər. Bu, İğdır-Naxçıvan qaz kəmərinin NMR ilə quru əlaqəsinin yaradılması baxımından yaratdığı presedentin əhəmiyyətində Zəngəzur dəhlizinin açılması imkanlarını şaxələndirir".

***M.İbrahimli***

09_27 IYUl-QARA.qxd 3/6/2025 10:43 PM Page 5



# İlham Əliyevin Türkiyəyə səfəri başa çatdı



***Azərbaycan Prezidenti İlham Əliyevin Türkiyəyə işgüzar səfəri martın 6-da başa çatıb.***

"Unikal" xəbər verir ki, Ankaranın Esenboğa Hava Limanında dövlət başçısının şərəfinə fəxri qarovul dəstəsi düzülüb.

Prezident İlham Əliyevi Türkiyənin maliyyə naziri Mehmet Şimşek və digər rəsmi şəxslər yola salıblar.

# Prezidentdən Sahil Babayevlə bağlı sərəncam



***Azərbaycanla Serbiya arasında ticarət və iqtisadi əməkdaşlıq üzrə Hökumətlərarası Komissiyanın tərkibində dəyişiklik edilib.***

"Unikal" xəbər verir ki, bununla bağlı Prezident İlham Əliyev Sərəncam imzalayıb.

Sərəncama əsasən, Azərbaycan-Serbiya Hökumətlərarası Komissiyanın həmsədri maliyyə naziri olub. Daha əvvəl bu vəzifəni əmək və əhalinin sosial müdafiəsi naziri icra edib. Qeyd edək ki, Sahil Babayev bir müddət əvvəl əmək və əhalinin sosial müdafiəsi naziri vəzifəsindən azad edilərək maliyyə naziri təyin edilib.

Bundan əlavə, Komissiyanın tərkibinə əmək və əhalinin sosial müdafiəsi nazirinin müavini də daxil edilib.

# Azərbaycanda ehtiyatda olan hərbçilər orduya çağırıldı



***2025-ci ilin hazırlıq planına əsasən, Səfərbərlik və Hərbi Xidmətə Çağırış üzrə Dövlət Xidməti ilə birgə tədbirlər çərçivəsində hərbi hissələrdə ehtiyatdan çağırılan bir qrup hərbi vəzifəlinin cəlb edildiyi növbəti təlim toplanışı başlayıb.***

"Unikal" xəbər verir ki, bu barədə Müdafiə Nazirliyindən məlumat verilib. Ehtiyatdan çağırılan hərbi vəzifəlilər müvafiq qeydiyyatdan və həkim müayinəsindən keçdikdən sonra hərbi geyim və digər təminat növləri ilə təmin olunurlar.

Hərbi vəzifəlilərlə maarifləndirici söhbətlər aparılır, onlara təhlükəsizlik qaydaları çatdırılır, eləcə də sıra hazırlığı üzrə məşğələlər keçirilir.

Toplanış çərçivəsində hərbi vəzifəlilərin döyüş hazırlığı səviyyəsinin artırılması, təlim sahəsində praktiki vərdişlərinin təkmilləşdirilməsi, eləcə də bilik və bacarıqlarının inkişaf etdirilməsi məqsədilə müxtəlif tapşırıqlar icra ediləcək.

# Siyasi proseslərdə iştirak edən tərəflər Xankəndidə bir araya gəldilər

***Ölkəmizdə fəaliyyət göstərən siyasi partiya nümayəndələrinin, tanınmış politoloq və siyasi şərhçilərin, habelə internet televiziya kanalları rəhbərlərinin, qəzet redaktorlarının və digər jurnalistlərin növbəti birgə səfəri bu dəfə martın 6-da Xankəndi, Əsgəran və Xocalıya təşkil olunub.***

AZƏRTAC xəbər verir ki, Azərbaycan Respublikasının Prezidenti İlham Əliyevin təşəbbüsü ilə ölkədə siyasi dialoq mühitinin daha da dərinləşdirilməsi, habelə milli maraqlar və dövlətçilik naminə siyasi proseslərdə etibarlı əməkdaşlıq münasibətlərinin bərqərar edilməsi məqsədilə mütəmadi surətdə müxtəlif səpkili layihələr icra olunur. Azərbaycan ictimaiyyəti son beş il ərzində iqtidarın mövcud istiqamətdəki davamlı təşəbbüslərinin şahididir. Siyasi dialoq ilə əlaqədar bütün təşəbbüslər mətbuatda işıqlandırılır və bu məlumatlar ictimaiyyət üçün tam olaraq açıqdır.

Qeyd edək ki, siyasi dialoq mühitinin təşviqi ilə bağlı təşəbbüslər institusional və qanunverici müstəvilərdə olmaqla yanaşı, ölkəmizdə yeni siyasi mədəniyyətin formalaşdırılması kimi mühüm sahəni də əhatə edir. Təsadüfi deyil ki, dövlətimizin başçısı öz çıxış və müsahibələrində siyasətdə sağlam münasibətlərin bərqərar olunması, siyasi dialoq mühitinin əhəmiyyəti və konstruktiv əməkdaşlığın vacibliyi kimi önəmli demokratik məzmunlu təzahürləri davamlı olaraq qeyd edir.

Konstruktiv əməkdaşlığın qurulması çərçivəsində siyasi partiya rəhbərləri üçün işğaldan azad olunmuş ərazilərə birgə səfərlərin təşkili təcrübəsi xüsusi əhəmiyyətə malikdir. Xatırladaq ki, sağlam və işgüzar münasibətlərin bərqərar olunmasına xidmət edən siyasi dialoq ilə bağlı toplanmış təcrübənin zənginləşdirilməsi üçün ölkə siyasilərinin birgə səfərləri daha öncə Ağdam, Şuşa (2 dəfə) və Zəngilana təşkil olunub.



Xüsusi olaraq vurğulanmalıdır ki, birgə səfərlərin birində ölkə siyasiləri Şuşa Bəyannaməsinin birinci ildönümü münasibətilə 2022-ci il iyunun 15-də Şuşa şəhərində keçirilmiş "Azərbaycan-Türkiyə strateji müttəfiqlik münasibətləri Qafqaz və region üçün sülh və sabitlik mənbəyidir" adlı beynəlxalq konfransda iştirak ediblər. Beləliklə, təşviq olunan dialoq mühiti sayəsində müxalif siyasi partiyalar, eyni zamanda, təşkil olunan beynəlxalq tədbirlərdə də tərəf-müqabili kimi iştirak edirlər.

Növbəti - sayca 5-ci birgə səfərin ünvanı Xankəndi, Xocalı və Əsgərandır. Azərbaycan Respublikası Prezidenti Administrasiyasının təşkilatçılığı ilə baş tutan 6 mart səfərində 24 siyasi partiyanın nümayəndələri, tanınmış politoloq və siyasi şərhçilər, habelə internet televiziya kanallarının rəhbərləri, qəzet redaktorları və digər jurnalistlər iştirak ediblər.

Səfərin iştirakçıları əvvəlcə Əsgəran qala-kompleksi ilə tanış oldular və kompleks haqqında geniş məlumat əldə etdilər.

İştirakçılar səfər çərçivəsində müxtəlif məkanlar ilə yanaşı, Xocalı şəhərində inşa edilən Xocalı Soyqırımı Memorialında aparılan işlərlə yaxından tanış oldular. Səfər iştirakçıları, həmçinin Xocalının Ballıca kəndində tikilən fərdi evlərin və infrastrukturun bərpası sahəsində görülmüş işlərlə tanış olmaq imkanı əldə etdilər.

Daha sonra səfər iştirakçıları Xankəndi şəhərində oldular. Xankəndi şəhərində 2023-cü il noyabrın 8-də Vətən müharibəsində əldə edilən Zəfərin üçüncü ildönümünə həsr olunan hərbi parad keçirildiyi Zəfər meydanını ziyarət edən səfər iştirakçıları burada mətbuat nümayəndələrinə verdikləri müsahibələrdə öz təəssüratları ilə bölüşdülər.

Səfər zamanı Prezident Administrasiyasının Siyasi partiyalar və qanunvericilik hakimiyyəti ilə əlaqələr şöbəsinin müdiri Ədalət Vəliyev Xankəndi şəhərində iştirakçıların qarşısında çıxış edərək ötən dövr ərzində Prezident İlham Əliyevin təşəbbüsü ilə ölkədə davamlı surətdə təşviq olunan həmrəylik mühitinin strateji əhəmiyyəti və mövcud istiqamətdə görülmüş işlər haqqında məlumat verdi.

Azərbaycan Prezidenti, Müzəffər Ali Baş Komandan İlham Əliyevin rəhbərliyi ilə 44 günlük Vətən müharibəsində qazanılan şanlı Qələbənin bütün dünya azərbaycanlılarının qürur mənbəyi olduğunu xüsusi vurğulayan Administrasiya rəsmisi qeyd etdi ki, Xankəndi şəhərində Zəfər meydanında ölkənin bütün əsas siyasi partiyalarının bir yerdə toplanması da Azərbaycanın siyasi tarixində əlamətdar hadisə kimi dəyərləndirilməlidir. Ədalət Vəliyev çıxışında bildirdi ki, müharibə dövründə olduğu kimi hər zaman vətənpərvər qüvvələri birləşdirən əsas amil milli maraqlar və dövlətçilik mövqeyidir.

Səfər çərçivəsində siyasilər Xankəndi, Xocalı və Əsgəranın iqtisadi, habelə turizm potensialı ilə də tanış oldular. Təbii landşaft, nadir təbiət, gözəl meşələr, dağlar, bulaqlar, çaylar, habelə icra olunan infrastruktur layihələri - bütün bunlar regionun inkişafı üçün zəmin yaradır. Səfərin iştirakçılarına bildirildi ki, Xankəndi, Xocalı və Əsgəranın turizm potensialı digər rayonlarda yaradılacaq turizm imkanları ilə də uzlaşdırılacaqdır. Burada hotellər, istirahət zonaları yaradılacaq və kənd turizmi də inkişaf etdiriləcəkdir. Nəzərə alınmalıdır ki, yaradılacaq yeni infrastruktur Qarabağa qayıdacaq insanlar üçün məşğulluq və gəlir mənbəyi olacaq.

Təşkil olunmuş səfər timsalında sevindirici haldır ki, siyasi proseslərdə iştirak edən tərəflər arasında işgüzar mühitin və sağlam münasibətlərin qorunması məqsədilə atılan bütün addımlar siyasi partiya rəhbərləri tərəfindən fəal şəkildə dəstəklənir. Təşviq olunan dialoq mühiti konstruktiv əməkdaşlığı, dövlət naminə şəxsi ambisiyalardan imtina olunmasını, milli həmrəyliyi, habelə etibarlı münasibətləri tərənnüm edir.

Baş redaktor:
**Zaur Əhməd**

Turanbank" ASC Binəqədi filialı.
H/h: AZ70TURA40050054644700110944
M/H: AZ26NABZ01350100000000027944
Kodu: 504692
Şəhadətnamə № 3150
Ünvan: 8 mk-r. Ə.Naxcıvani 5N
Tel./Fax:(012) 561-65-53

Qəzet redaksiyanın kompüter mərkəzində yığılıb, səhifələnmiş və "Futbol+" servis mətbəəsində çap olunmuşdur

Sifariş 252.
Tiraj:2000

# Xaricdə təhsil almış 65 nəfərin diplomu tanınmadı

***Fevral ayı üzrə 613 müraciətçinin 548-i barədə müsbət qərar verilərək müvafiq şəhadətnamələr təqdim edilmiş, 65 nəfərin müraciəti isə mənfi qərarla yekunlaşıb.***

"Unikal" xəbər verir ki, bu barədə Təhsildə Keyfiyyət Təminat Agentliyi məlumat yayıb.

Qeyd olunub ki, tədris yükünü mənimsəmək üçün təhsil aldığı ölkənin ərazisində tələb olunan normativdən az olması səbəbi ilə 47, "Açıköğretim" təhsil forması səbəbilə 6, akkreditasiyasız ali təhsil müəssisəsi səbəbilə 4, tədris yükünü mənimsəmək üçün təhsil aldığı ölkənin ərazisində tələb olunan normativdən az olması və əhəmiyyətli fərq səbəbi ilə 3, baytarlıq ixtisası üzrə qiyabi formada təhsil alınması səbəbilə 2, ekvivalenti olmayan ixtisas səbəbilə 2, bakalavr diplomu üzrə imtina verilmə səbəbilə 1 nəfərin müraciəti mənfi qərarla yekunlaşıb.

Ölkələr üzrə müraciətlərin sayına nəzər saldıqda Rusiya Federasiyasından 166, Ukraynadan 158, Türkiyə Respublikasından 148, Belarus Respublikasından 43, Gürcüstandan 21, Birləşmiş Krallıqdan 18, Macarıstan dan 12, Amerika Birləşmiş Ştatlarından 6, Polşa Respublikasından 6, Qırğız Respublikasından 4, İsveç Krallığından 3, Niderland Krallığından 3, Pakistan Islam Respublikasından 3, İspaniya Krallığından 2, İtaliya Respublikasından 2, Malayziyadan 2, Mərakeş Krallığından 2, Tacikistan Respublikasından 2, Almaniya Federativ Respublikasından 1, Belçika Krallığından 1, Cənubi Afrika Respublikasından 1, Çin Xalq Respublikasından 1, Fransa Respublikasından 1, İsveçrə Konfederasiyasından 1, Kanadadan 1, Koreya Respublikasından 1, Latviya Respublikasından 1, Nigeriya Federativ Respublikasından 1, Özbəkistan Respublikasından 1, Qazaxıstan Respublikasından 1müraciətin olduğu müşahidə olunur.

09_27 IYUl-QARA.qxd 3/6/2025 7:49 PM Page 6



# Dövlət qulluğu üzrə müsabiqənin test imtahanı keçiriləcək

***Martın 9-u Dövlət İmtahan Mərkəzi dövlət qulluğu vəzifələrinin A növünə (inzibati rəhbər vəzifələr) aid AB və AC qruplarına və dövlət qulluğu vəzifələrinin B növünə (inzibati icraçı vəzifələr) aid BA və BB qruplarına uyğun vəzifələr üzrə test imtahanları keçirəcək.***

Bu barədə "Unikal"a DİM-dən məlumat verilib. Bildirilib ki, imtahanlar iki növbə olmaqla elektron formada kompüterlər vasitəsilə Bakı və Naxçıvan şəhərlərində təşkil olunacaq.

İmtahanlar saat 11:00-da və 16:00-da başlanır. Müvafiq olaraq saat 10:45-dən və 15:45-dən sonra gələn namizədlər imtahana buraxılmırlar. Buraxılış vərəqəsində imtahan yeri, binası, imtahana gəlməli olan vaxt və digər zəruri məlumatlar göstərilib.



İmtahana qeydiyyat 2025-ci il fevralın 5-dən 25-dək aparılıb və bu müddət ərzində 1716 namizəd qeydiyyatdan keçib.

İmtahanda iştirak etmək üçün qeydiyyatdan keçmiş namizədlər DİM-in internet saytına daxil olaraq "İmtahana buraxılış vərəqəsi"ni çap edə bilərlər.

Namizədlər imtahana şəxsiyyəti təsdiq edən sənədin əslini və "İmtahana buraxılış vərəqəsi"ni gətirməlidirlər.

İmtahan elektron formada kompüterlər vasitəsilə Bakı və Naxçıvan şəhərlərində 2 binada təşkil olunacaq. İmtahanın keçirilməsi üçün 2 ümumi imtahan rəhbəri, 10 imtahan rəhbəri, 59 nəzarətçi və 6 buraxılış rejimi əməkdaşı ayrılıb.

# Ali Məhkəmədən yol-nəqliyyat hadisələri ilə bağlı mühüm qərar

***Azərbaycan Respublikasının Ali Məhkəməsində ölümlə nəticələnən yol-nəqliyyat hadisəsi törətməkdə ittiham olunan şəxsin işinə baxılıb.***

"Unikal" xəbər verir ki, ibtidai istintaq orqanı tərəfindən şəxsə Cinayət Məcəlləsinin (CM) 263.2 (Nəqliyyat vasitəsini idarə edən şəxs tərəfindən yol hərəkəti və ya nəqliyyat vasitələrinin istismarı qaydalarının pozulması ehtiyatsızlıqdan zərərçəkmiş şəxsin ölümünə səbəb olduqda) və 264-cü (Yol-nəqliyyat hadisəsi yerindən qaçma) maddələri ilə ittiham verilib. İttihama görə, o, etibarnamə əsasında idarə etdiyi texniki cəhətdən saz vəziyyətdə olan avtomobil ilə Sumqayıt şəhəri ərazisində yolu sağdan sola keçən piyadanı ehtiyatsızlıqdan vurub, nəticədə zərərçəkmiş aldığı xəsarətlər nəticəsində hadisə yerində keçinib. Sürücü isə yol nəqliyyat hadisəsi yerindən qaçıb.

Məhkəmə prosesində verilən ittihamlar üzrə şəxs özünü təqsirli bilməyib. Birinci instansiya məhkəməsi işi araşdıraraq, təqsirləndirilən şəxsin əməlində cinayət tərkibi olmadığı qənaətinə gəlib və ona hər iki maddə üzrə bəraət verib. Apellyasiya instansiya məhkəməsi də hökmü qüvvədə saxlayıb. Bundan sonra dövlət ittihamçısı kassasiya protesti ilə Ali Məhkəməyə müraciət edib. Müraciətdə bəraət qərarının ləğvi istənilib.

Ali Məhkəmənin Cinayət kollegiyası işin materiallarını öyrənib, kassasiya protestinin dəlillərini müzakirə edib, kassasiya protestinin təmin olunması barədə dövlət ittihamçısının, kassasiya protestinin təmin edilməməsi barədə bəraət almış şəxsin və müdafiəçinin çıxışlarını dinləyib, işə baxmış birinci və apellyasiya instansiya məhkəmələri tərəfindən faktların müəyyən edilməsində və hüquqi məsələlər üzrə cinayət və cinayət-prosessual qanun normalarının tətbiqinin düzgünlüyünü yoxlayaraq, belə qənaətə gəlib ki, kassasiya protesti qismən təmin edilməlidir.



Hazırkı vəziyyətdə məhkəmə kollegiyası hesab edib ki, şəxsə CM-in 263.2-ci maddəsi ilə bəraət verməkdə birinci instansiyası məhkəməsi haqlı olub.

Lakin şəxsin əməlində həm CM-in 264-cü maddəsinin, həm də CM-in 143-cü (Təhlükədə qoyma) maddəsinin tərkib əlamətləri olduqda, şəxs xüsusi norma olan CM-in 264-cü maddəsi ilə təqsirli bilinərək məhkum edilməli, əgər şəxsə CM-in 263-cü maddəsi ilə bəraət verildikdə və məhz bu səbəbdən həmin şəxsin əməlində CM-in 264-cü maddəsinin tərkib əlamətlərinin olmaması qənaətinə gəlindikdə, bu zaman şəxsin əməlində hazırkı vəziyyət üzrə ümumi norma olan CM-in 143-cü maddəsinin tərkib əlamətlərinin olub-olmaması məsələsi müzakirə edilməlidir.

Nəzərə almaq lazımdır ki, CM-in 143-cü maddəsində nəzərdə tutulmuş cinayətin ictimai təhlükəliliyi ondan ibarətdir ki, həmin əməlin törədilməsi nəticəsində təhlükəli vəziyyətdə olan və özünü qorumaq üçün tədbir görmək imkanından məhrum olan zərərçəkmiş şəxsin həyatı və sağlamlığı təhlükə altına alınmış olur. Belə əmələ görə cinayət məsuliyyətinin nəzərdə tutulması müxtəlif səbəblərdən öz təhlükəsizliyini təmin edə bilməyən şəxslərin labüd təhlükədən qorunmasına yönəlmişdir.

CM-in 143-cü maddəsinin sanksiyası CM-in 264-cü maddəsinin sanksiyasından daha yüngül olduğundan, əməlin CM-in 264-cü maddəsindən CM-in 143-cü maddəsinə tövsif olunması irəli sürülmüş ittihamın məzmunu və cəzaya münasibətdə şəxsin vəziyyətinin ağırlaşdırılmasına səbəb olmayacaqdır. Birinci instansiya məhkəməsi kimi, apellyasiya instansiyası məhkəməsi də, hazırki iş üzrə həqiqətin müəyyən edilməsi məqsədilə mühüm əhəmiyyətə malik olan sübutların araşdırılmasından imtina edərək, həm də, araşdırılmış sübutlara CPM-in 143-146-cı maddələrinin tələb etdiyi kimi, mənsubiyyəti, mümkünlüyü və mötəbərliyi üzrə qiymət verməyib, şəxsin CM-in 264-cü maddəsi ilə də təqsirsiz olması barədə nəticəyə gələrkən, kifayət etməyən sübutlara əsaslanıblar.

Bu baxımdan Ali Məhkəmənin Cinayət Kollegiyasının qərarı ilə kassasiya protesti qismən təmin edilib, qərar, şəxsə Cinayət Məcəlləsinin 264-cü maddəsi ilə bəraət verilməsi hissəsində ləğv edilib, cinayət işi həmin hissədə Sumqayıt Apellyasiya Məhkəməsinə göndərilib.




# Azərbaycan və Gürcüstan XİN rəhbərləri telefonla danışdı

***Xarici işlər naziri Ceyhun Bayramov və Gürcüstanın xarici işlər naziri Maka Botçorişvili arasında telefon danışığı baş tutub.***

XİN-dən "Unikal"a verilən məlumata görə, tərəflər iki ölkə arasında dostluq və strateji tərəfdaşlıq münasibətlərinin cari vəziyyətini və perspektivlərini müzakirə ediblər.

Ölkələr arasında ali və yüksək səviyyədə mövcud siyasi dialoqun, baş tutan intensiv səfərlərin, siyasi məsləhətləşmələr mexanizminin münasibətlərin daha da gücləndirilməsinə töhfə verdiyi vurğulanıb. Cari ildə bu kimi siyasi təmasların daha da genişləndirilməsinin əhəmiyyəti vurğulanıb.

Nazirlər, həmçinin regional məsələlər ətrafında fikir mübadiləsi aparıblar.

# Azərbaycanda şagird özünü məktəb binasından atmaq istədi

***Yevlax şəhər orta məktəbində 9-cu sinif şagirdi intihara cəhd edib.***

"Unikal" xəbər verir ki, o, intihar məqsədilə özünü təhsil aldığı məktəbin 3-cü mərtəbəsindən yerə atmağa çalışıb. Sinif yoldaşları və təhsil müəssisəsi əməkdaşlarının müdaxiləsi nəticəsində intihar hadisəsinin qarşısı alınıb.

Mərkəzi Aran Regional Təhsil İdarəsindən sorğumuza cavab olaraq bildirilib ki, məktəbin 9-cu sinif şagirdi bacısı ilə telefon əlaqəsi saxlamaq istədiyini söyləyərək sinif otağından dəhlizə çıxıb. Bu zaman o, özünü məktəbin 3-cü mərtəbəsindən yerə atmağa çalışıb. Şagirdlə məktəb psixoloqunun əlaqəsi yaradılıb, valideyəyinləri ilə söhbət aparılaraq övladları üzərində nəzarətin gücləndirilməsi tövsiyyə olunub. Sonda şagird valideyni ilə evinə yola salınıb. Həmçinin baş vermiş hadisə ilə bağlı hüquq-mühafizə orqanlarına məlumat verilib".

Faktla bağlı araşdırma aparılır.

***Ehtiram Muradov***

# AZAL-dan bayramlarla əlaqədar tövsiyə

***6 mart 2025-ci il, Bakı - Novruz və Ramazan bayramları ərəfəsində və tətil günlərində Bakıdan Naxçıvana və əks istiqamətdə olan uçuşlara tələbat ənənəvi olaraq artır. Bu səbəbdən Azərbaycanın milli aviadaşıyıcısı AZAL sözügedən dövr ərzində səyahət etməyi planlaşdıran sərnişinlərə aviabiletləri əvvəlcədən əldə etməyi tövsiyə edir.***

"Azərbaycan Hava Yolları" QSC-nin Mətbuat xidmətindən "Unikal"a bildirilib ki, aviadaşımaların pik dövrləri hər zaman sərnişin axınının artması ilə müşayiət olunur və populyar istiqamətlərə biletlər daha tez satılır. Sərnişinlərə Bakı-Naxçıvan-Bakı marşrutu üzrə ən uyğun uçuş vaxtını seçmək və səyahəti daha komfortlu etmək məqsədilə aviabiletləri öncədən almaq məsləhət görülür.

Zərurət yaranarsa, bu istiqamət üzrə uçuşların sayı artırılacaq ki, bu da sərnişinlərə rahat səyahət imkanı yaradacaq.

Aviabiletləri aviaşirkətin www.azal.az rəsmi saytından, mobil tətbiqindən və ya AZAL-ın kassalarından əldə etmək mümkündür.

09_27 IYUI-QARA.qxd 3/6/2025 7:49 PM Page 7





# Baş prokuror Arif Paşayevlə memorandum imzaladı

***Azərbaycan Respublikasının Baş Prokurorluğu ilə Milli Aviasiya Akademiyası arasında əməkdaşlığın inkişafına dair Anlaşma Memorandumu imzalanıb.***

Bu barədə "Unikal"a Baş Prokurorluqdan bildirilib. Məlumata görə, martın 5-də Milli Aviasiya Akademiyasının (MAA) rektoru, akademik Arif Paşayev və Azərbaycan Respublikasının Baş prokuroru, hüquq üzrə fəlsəfə doktoru Kamran Əliyev arasında görüş keçirilib.

Görüşdə əməkdaşlıq haqqında 23 sentyabr 2020-ci il tarixində imzalanmış Saziş çərçivəsində MAA və Prokurorluq arasındakı səmərəli əlaqələri, kadr hazırlığı sahəsində qarşılıqlı fəaliyyətin əhəmiyyətini, habelə əldə olunan müsbət nəticələri nəzərə alaraq əməkdaşlığın daha da genişləndirilməsi məqsədilə müvafiq razılıq əldə olunub.

Memoranduma əsasən, Prokurorluq orqanlarının əməkdaşlarının tədrisdə, MAA-nın professor-müəllim heyətinin isə Prokurorluğa qəbul olunan və fəaliyyətdə olan əməkdaşlarının ixtisasartırma prosesində iştirak etməsi, hüquqi və elmi maariflendirmə istiqamətində birgə təlim kurslarının, seminar və mühazirələrin təşkili, "Hüquqşünaslıq" ixtisası üzrə bakalavr pilləsində təhsil alan tələbələrin Prokurorluqda ictimai köməkçi (könüllü) qismində isə, MAA-nın professor-müəllim heyətinin Prokurorluqda qanunvericilik aktlarının hazırlanması prosesinə cəlb edilməsi nəzərdə tutulur.

# Metropolitendə yeni təyinatlar

***"Bakı Metropoliteni" QSC-də Hüquq departamentinin rəisi, Kommersiya departamentinin rəisi və Daxili Nəzarət şöbəsinin rəisi vəzifələrinə yeni təyinatlar olub.***

Qurumun Hüquq departamentinin rəisi Babək İsmayılov öz vəzifəsindən azad edilərək həmin departamentin rəis müavini vəzifəsinə təyin olunub.

B.İsmayılovun yerinə Metropolitenin Hüquq departamentin rəisi vəzifəsi Kənan Quliyevə həvalə edilib. K.Quliyev daha öncə Azərbaycan İnvestisiya Holdinqində Hüquq departamentinin müdiri vəzifəsində çalışıb.

Metropolitenin Kommersiya Departamentinin rəisi vəzifəsinə isə Ruslan Ağayev gətirilib. R.Ağayev bu vəzifədə bir müddət öncə işdən azad olunan Lalə Babayevanı əvəz edib. R.Ağayev daha öncə Balaxanı Sənaye Parkında çalışıb.

Metronun Daxili Nəzarət şöbəsinin rəisi vəzifəsi isə Nicat Əliyevə həvalə olunub. N.Ağayev daha öncə "Azərbaycan Dəmir Yolları" QSC-nin əməkdaşı olub.

Qeyd edək ki, ötən ilin dekabr ayında ölkə başçısının Sərəncamı ilə Vüsal Aslanov "Bakı Metropoliteni" QSC-nin sədri vəzifəsinə təyin edilib. V.Aslanovun gəlişindən sonra qurumda kütləvi şəkildə kadr dəyişiklikləri, rəhbər vəzifələrə yeni təyinatlar müşahidə edilir. Belə ki, bu ilin yanvar-fevral aylarında Nərgiz Mustafayeva Metropolitenin Strateji inkişaf departamentinin, Asəf İsgəndərli Maliyyə departamentinin, Tərlan Həsənli Təchizat departamentinin rəisi vəzifələrinə təyin edilib. QSC-nin rəisi V.Aslanovun əmri ilə qurumda Mühafizə və Yanğın Təhlükəsizliyi departamenti və Kommunikasiya departamentləri yaradılıb. Zamiq Quliyev Metropolitenin Mühafizə və Yanğın Təhlükəsizliyi departamentinin, Şaban İmkani isə Kommunikasiya departamentinin rəisi vəzifələrinə təyin olunub. Bu ilin yanvar ayında Türkiyənin Marmaray sualtı tunelinin mühəndisi Orxan Yenigün Metropolitendə sədrin müşaviri vəzifəsinə gətirilib(apa).

# "Boşanmaların sayının artması ciddi problemdir"

## Ceyhun Məmmədov: "Baş verən deqradasiyanın, mənəvi aşınmanın da cəmiyyətdəki proseslərə ciddi təsiri var"

***Milli Məclisin deputatı Ceyhun Məmmədov "Unikal"a müsahibə verib. O, Aliment Fondunun yaradılması ilə bağlı təkliflərdən, boşanmaların sayının artmasından, repetitorluğun nə zaman ləğv ediləbiləcəyindən, müəllimlərin təqaüd yaşının artırılmasından və s. məsələlərdən danışıb.***

***-Ceyhun müəllim, Azərbaycanda bir neçə ildir Aliment Fondunun yaradılması ilə bağlı təkliflər irəli sürülür. Bu günlərdə Milli Məclisin İnsan hüquqları komitəsinin iclasında məsələ ətrafında müzakirələr oldu. Bir neçə deputat çıxışında qeyd etdi ki, bu fond elə formada yaradılmalıdır ki, saxta boşanmaların sayı artmasın. Sizcə, Aliment Fondunun yaradılması bu sahədə olan problemləri həll edə bilərmi?***

-Bu məsələ uzun müddətdir cəmiyyətdə geniş müzakirə olunur. Düşünürəm ki, Aliment Fondunun yaradılması çıxış yolu deyil. Bizim bəzi həmkarlarımız da bu məsələyə reaksiya verdilər. Cəmiyyətdə müxtəlif yanaşmalar və baxışlar oldu. Ona görə bu məsələ ilə bağlı ciddi düşünməliyik. Hesab edirəm ki, ən önəmli məsələlərdən biri cəmiyyətdə ailənin önəmi, ailə institutunun rolu, onun cəmiyyətdəki proseslərə təsiri və digər istiqamətlərdə maarifləndirmə işlərinin aparılmasıdır. Gənclərin bəziləri ailənin əhəmiyyətini anlamırlar. Bu gün ailə qurub, sabah isə boşanırlar. Bu da əlavə problem yaradır. Bu məsələyə cəmiyyət müxtəlif reaksiyalar versə də, bu fondun yaradılması məsələni həll edəcək? Düşünürəm ki, xeyr. Əlavə problemlər yarada bilər. Ona görə ciddi düşünüb qərar qəbul etmək lazımdır.

***-Son illər boşanmaların sayının artması əsas müzakirə olunan məsələlərdəndir. Boşanmaların artması hansı problemlərə yol açır, bunun üçün hansı addımların atılmasına ehtiyac var?***

-Boşanmaların sayının artması ciddi problemdir. Həqiqətən narahatedici vəziyyətdir. Düşünürəm ki, baş verən deqradasiyanın, mənəvi aşınmanın da cəmiyyətdəki proseslərə ciddi təsiri var. Ona görə bu məsələdə həmin məqamı da nəzərə almalıyıq. Gənclər şüurlu şəkildə nikaha daxil olmalıdırlar. Onlara izah olunmalıdır ki, ailə nə üçündür. Necə gəldi ailə qurmalı deyillər.

***-Məlum olduğu kimi, ölkəmizdə təhsil sistemində repetitorluq geniş yayılıb. Hətta 1-ci sinifdən etibarən uşaqlar repetitor yanına getməyə başlayır. Ötən ay təhsil naziri Emin Əmrullayev də jurnalistlərin sualını cavablandırarkən bildirib ki, müəllimlərin məktəb daxilində dərsdən sonra repetitorluqla məşğul olması doğru deyil. Azərbaycanda repetitorluq ləğv olunsa, uşaqlar yüksək nəticə göstərə bilərmi və bunun ləğvi üçün hansı addımlar atılmalıdır?***

-Hesab edirəm ki, bu məsələdə müəyyən mənada inzibati tədbirlər də həyata keçirmək lazımdır. Biz desək ki, dünyanın hər yerində repetitorluq var, bizdə də olmalıdır, bu, birmənalı məsələ deyil. Yəni, bu məsələ tənzimlənməlidir. Çalışmalıyıq ki, məktəbə təhsili qaytaraq və onun keyfiyyətini artıraq. Bir tərəfdən dövlət təhsilə milyardlarla vəsait xərcləyir, digər tərəfdən isə valideynlər "öz boğazlarından kəsərək" bütün günü övladlarının təhsili üçün ciddi formada çalışırlar. Bu da enerji, maliyyə vəsaiti və zaman itkisidir. Burada başqa bir məsələ odur ki, birmənalı olaraq ali məktəbə qəbulda repetitorluğun çox böyük rolu, təsiri var. Ona görə də bunu həll etməliyik.

***-Bir sıra hallarda müəllimlərin təqaüdə göndərilməsi üçün qoyulan yaş həddinin artırılması təklif edilir. Belə ki, müəllimlərin təqaüd yaşının 70-ə qədər artırılması ilə bağlı təkliflər irəli sürülür. Sizcə, müəllimlərin təqaüd yaş həddi artırıla bilərmi?***

- Bununla bağlı araşdırma aparılmalıdır. Mənə elə gəlir ki, xüsusilə bölgələrdə bu problem yaşanır. Müəllimi 65 yaşında təqaüdə göndəririk, amma onun yerinə gətirə biləcəyimiz yeni müəllim yoxdur. Ona görə müəyyən istisnalar nəzərdə tutulmalıdır. Düşünürəm ki, müəllimlərin təqaüd yaş həddinin qaldırılması bölgələrdə yaranmış çətinliklərin aradan qaldırılmasına öz töhfəsini verə bilər. Bu kontekstdə məsələyə yanaşsaq, qeyd etdiyim reallıq, məqam nəzərə alınmalıdır. Həmin məsələni bu şəkildə qiymətləndirməyi bacarmalıyıq.



***-Hər il 8 Mart Beynəlxalq Qadınlar Günü ərəfəsində orta məktəblərdə pul yığılması məsələsi müzakirə mövzusu olur. Bununla bağlı təhsil müəssisələrinə tapşırıqlar verilsə də, müəyyən nöqsanlar ortaya çıxır. Bunun aradan qaldırılması üçün hansı işlər görülməlidir?***

-Bu, ciddi məsələdir. Təəssüf ki, hər il 8 martda eyni məsələləri, problemləri müzakirə edirik. Bu məsələdə hər kəsin diqqətli olmasına, müəllim nüfuzunun qorunması üçün çalışmasına ehtiyac var. Müəllimlik önəmli və müqəddəs peşədir. Biz bu peşənin gözdən düşməsinə, hörmətdən salınmasına, onun hörmətinin azalmasına yönəlmiş addımların və cəhdlərin qarşısını almalıyıq. Buna qarşı öz mövqeyimizi bildirməliyik. İlk növbədə məktəblərdə bu məsələyə ciddi nəzarət olmalıdır. Nəzarəti təmin etməliyik ki, davamlı olaraq bu cür hallar baş verməsin, xarakterik prosesə çevrilməsin. Birinci nəzarət məsələsi, ikinci isə ciddi cəzanın tətbiq olunmasıdır. Yəni, bu addımı atanlara cəza tədbirləri tətbiq olunmalıdır ki, belə əməllərə yol verməsinlər. Eyni zamanda valideynlər diqqətli olmalıdır. Onlar bu prosesin əsas iştirakçı tərəfi olmalı deyillər. Bu cür məsələlərə diqqətlə yanaşmalıdırlar. Bəzən valideynlərin özləri bu prosesdə təşəbbüskar və fəal olurlar. Bu da qeyd etdiyimiz məsələyə öz mənfi təsirini göstərir.

***Anar Kəlbiyev***

# Səlim Müslümovun ailə şirkətinə böyük şok

## Sabiq nazirin oğluna məxsus MMC niyə cəzalandırılıb? - İlginc təfərrüatlar!

***Bir müddət öncə Bakı Kommersiya Məhkəməsi iddiaçı Ahmet Haluk Uçucunun cavabdeh "Orion Global" Məhdud Məsuliyyətli Cəmiyyətinə qarşı "pul" tələbinə dair kommersiya mübahisəsi üzrə qətnamə çıxarıb. Belə ki, Bakı Kommersiya Məhkəməsinin hakimi Zeynəb Axundovanın sədrliyi ilə iddiaçı Ahmet Haluk Uçucunun cavabdeh "Orion Global" Məhdud Məsuliyyətli Cəmiyyətinə qarşı "pul" tələbinə dair kommersiya mübahisəsi üzrə işə məhkəmənin inzibati binasında açıq məhkəmə iclasında baxılıb.***



Işin hallarından aydın olur ki, iddiaçı "Orion Global" Məhdud Məsuliyyətli Cəmiyyətinə qarşı iddia ərizəsi ilə məhkəməyə müraciət edərək, cavabdeh "Orion Global" MMC-dən 77312,70 manat müqavilə üzrə borc, 5605,17 manat ödənilməmiş borc üzrə hesablanan faiz, 320 manat hüquqi yardım xərci, 339,71 manat dövlət rüsumu olmaqla, cəmi 83577,58 manat pulun tutularaq Uçucu Ahmet Haluka ödənilməsi barədə qətnamə qəbul edilməsini istəyib.

İddia tələbi onunla əsaslandırılıb ki, Uçucu Ahmet Haluk ilə "Orion Global" MMC arasında imzalanmış 15.10.2018-ci il tarixli xidmət müqaviləsinə əsasən iddiaçı idarəetmə məsləhətçisi xidmətlərini göstərmək, cavabdeh isə xidmətlərin dəyərini ödəmək öhdəliyini götürüb. Xidmətlərin dəyəri hər ay üçün tərəflər arasında imzalanmış müqavilədə 5200 ABŞ dolları, 01.01.2019-cu il tarixdə qüvvəyə minmiş müqaviləyə dəyişiklik edilməsi haqqında Əlavə 1-də 5263 ABŞ dolları, 1 fevral 2021-ci il tarixdə qüvvəyə minmiş müqaviləyə dəyişiklik edilməsi haqqında Əlavə 3-də isə 5263 manat kimi razılaşdırılıb.

Müqavilənin qüvvədə olduğu müddətdə cavabdehə göstərilmiş xidmətlər müvafiq təhvil-qəbul aktlarında öz əksini tapıb. Lakin cavabdeh tərəfindən müqavilənin şərtləri pozulmuş, göstərilmiş xidmətlərə görə yaranmış borclar ödənilməyib. "Hazırda cavabdehin iddiaçıya müqaviləyə əsasən 77312,70 manat (yetmiş yeddi min üç yüz on iki manat yetmiş qəpik) ödənilməmiş borcu qalmışdır. Göstərilən xidmətlər üçün ödənilməmiş borc 2021-ci il oktyabrın 1-dən 2022-ci il dekabrın 31-ə qədər olan dövrü (müvafiq təhvil qəbul aktları, qaimələr və məlumatların məcmusunu əks etdirən cədvəl ərizəyə əlavə olunur) əhatə edir. Əlavə olaraq Azərbaycan Respublikası Mülki Məcəlləsinin 449.1 və 449.2-ci maddələrinə əsasən Mərkəzi Bankın 02.05.2024-cü il üçün müəyyən etdiyi 7.25% (yeddi tam yüzdə iyirmi beş faiz) uçot faiz dərəcəsinə əsasən ödənilməmiş borc üzrə hesablanan faiz 5605,17 manat (beş min altı yüz beş manat on yeddi qəpik) təşkil edir. Borcun ödənilməsi ilə bağlı iddiaçı cavabdehə müraciət ünvanlasa da, bu günə kimi borc məbləği ödənilməmişdir" - istintaq sənədlərindən belə deyilir.

Məhkəmə yekunda cavabdeh "Orion Global" Məhdud Məsuliyyətli Cəmiyyətindən 77312,70 manat (yetmiş yeddi min üç yüz on iki manat yetmiş qəpik) borc, 3865,60 manat (üç min səkkiz yüz altmış beş manat altmış qəpik) gecikdirilmiş vaxt üçün hesablanmış faiz borcu, 320 (üç yüz iyirmi) manat hüquqi yardım xərci və ödənilmiş dövlət rüsumunun əvəzi olaraq 331,64 manat (üç yüz otuz bir manat altmış dörd qəpik) olmaqla, cəmi 81829,94 manat (səksən bir min səkkiz yüz iyirmi doqquz manat doxsan dörd qəpik) məbləğində pul vəsaitinin iddiaçı Ahmet Haluk Ucucunun xeyrinə tutulmasına qərar verib.

"Unikal"ın araşdırması nəticəsində aydınlaşıb ki, Ucucu 2017-2023-cü illərdə "Orion Global" Məsləhət Şurasının üzvü olub. O, qida sektorunda fəaliyyət göstərən tanınmış şirkətlərdə - "Nestle Turkey", "Danone" və "Atropatena"da yüksək vəzifələrdə işləyib.

Məhkəmə tərəfindən cəzalandırılan "Orion Global" MMC isə sabiq əmək və əhalinin sosial müdafiəsi naziri Səlim Müslümovun ailə şirkəti sayılır. Belə ki, bu MMC hələ Müslümov nazir işləyərkən - 23 noyabr 2017-ci ildə Bakı şəhəri, Binəqədi rayonu, Ziya Bünyadov, ev 7A ünvanında dövlət qeydiyyatına alınıb. Eyni ünvanda Səlim Müslümovun oğlanları - Turqay və Asim Müslümlü qardaşlarının rəhbərlik etdiyi başqa şirkətlər də qeydiyyatda olub.

Turqay Səlim oğlu Müslümlü "Orion Global" MMC, "Orion Construction" MMC və "Orion Cars" MMC-nin qanuni təmsilçisi, Asim Səlim oğlu Müslümlü isə "Orion Creativ Solutions" MMC-nin qanuni təmsilçisidir.

2023-cü ilin avqust ayında dövlət büdcəsinə böyük həcmdə - 102 min manatdan çox vergi borcu olan "Orion Global" MMC-nin ötən il isə 6 min 163 manat 93 qəpik vergi borcu barədə yerli mediada məlumatlar yer alıb.

Xatırladaq ki, Səlim Müslümov 2021-ci ildə Dövlət Təhlükəsizliyi Xidməti (DTX) tərəfindən həbs olunub. Ona qarşı Cinayət Məcəlləsinin 179.4 ( xüsusilə külli miqdarda ziyan vurmaqla mənimsəmə və israf etmə), 308.2 (ağır nəticələrə səbəb olan vəzifə səlahiyyətlərindən sui-istifadə), 311.3.2-ci və 311.3.3-cü (təkrar külli miqdarda rüşvət alma) maddələri ilə ittiham irəli sürülüb. Sabiq nazir 13 ay həbsdə qaldıqdan sonra ev dustaqlığına buraxılıb.

***Sənan Mirzə***

# Erməni general Azərbaycana qarşı döyüşdüyünü məhkəmədə etiraf etdi



***Bakı Hərbi Məhkəməsində keçirilən məhkəmə prosesində Ermənistan silahlı qüvvələrinin hərbi qulluqçusu olmuş, general-mayor ali hərbi rütbəsində xidmət etmiş Davit Manukyan Azərbaycan Silahlı Qüvvələrinə qarşı döyüşdüyünü etiraf edib.***

"Unikal" xəbər verir ki, o, ifadəsində hərbçi olduğunu, Ermənistanda xidmət etdiyini, həmçinin Birinci və İkinci Qarabağ müharibələri zamanı Ermənistan ordusunun tərkibində Azərbaycan Respublikasının Silahlı Qüvvələrinə qarşı vuruşduğunu bildirib.

D.Manukyan bildirib ki, üstündə gəzdirdiyi və sonradan evində aşkarlanan odlu silahlar Ermənistan Respublikasının Polis İdarəsində qeydiyyatdadır.

O, 44 günlük müharibə zamanı avtomobilinin "Bayraktar" PUA-sı ilə vurulduğunu da bildirərək deyib: "Sürücüm yaralandı, mən isə 20 metr aralıda olduğumdan xəsarət almadım".

Davit Manukyan istintaq dövründə müstəntiqlərlə çox yaxşı əməkdaşlıq etdiyini də söyləyib.

Təqsirləndirilən şəxs Davit Allahverdiyan isə sərbəst ifadəsi zamanı ilkin istintaqda bütün suallara cavab verdiyini bildirib. "Mənə qarşı münasibət insani, yaxşı olub, buna görə təşəkkür edirəm. İndi də bütün suallara cavab verməyə hazıram", - deyə o əlavə edib.

Qeyd edək ki, Ermənistanın hərbi təcavüzü nəticəsində sülh və insanlıq əleyhinə cinayətlər, müharibə cinayətləri, o cümlədən təcavüzkar müharibənin hazırlanması və aparılması, soyqırımı, müharibə qanunlarını və adətlərini pozma, habelə terrorçuluq, terrorçuluğu maliyyələşdirmə, hakimiyyəti zorla ələ keçirmə, onu zorla saxlama və digər çoxsaylı cinayətlər törətməkdə təqsirləndirilən Ermənistan Respublikasının vətəndaşlarının məhkəməsi davam edir.

# Dövlət sərhədində müşahidə edilən uçuş aparatı zərərsizləşdirildi

***Dövlət Sərhəd Xidməti tərəfindən dövlət sərhədinin etibarlı mühafizəsinin təmin edilməsi, qaçaqmalçılığa və narkotik vasitələrin qanunsuz dövriyyəsinə qarşı mübarizə tədbirləri uğurla davam etdirilir.***

DSX-dən "Unikal"a verilən məlumata görə, mart ayının 4-də Dövlət Sərhəd Xidmətinin Sərhəd Qoşunları Komandanlığının "Göytəpə" sərhəd dəstəsinin xidməti ərazisindən ümumi çəkisi 515 qram narkotik vasitə heroinin kiçik həcmli PUA vasitəsilə ölkə ərazisinə keçirilməsinin qarşısı alınıb.

Faktla bağlı əməliyyat-istintaq tədbirləri davam etdirilir.

# 25 ailə doğma yurduna qovuşdu



***Martın 6-da doğma yurduna yola salınan köç karvanı Ağdərə rayonunun Həsənriz kəndinə çatıb.***

"Unikal" xəbər verir ki, bu mərhələdə köçürülən 75 nəfərdən ibarət 25 ailəyə mənzillərin açarları təqdim edilib. Mərasimdə Xankəndi şəhərində, Ağdərə və Xocalı rayonlarında Azərbaycan Respublikası Prezidentinin xüsusi nümayəndəliyinin, Qaçqınların və Məcburi Köçkünlərin İşləri üzrə Dövlət Komitəsinin və "Xankəndi şəhərində, Ağdərə və Xocalı rayonlarında Bərpa, Tikinti və İdarəetmə Xidməti" publik hüquqi şəxsin rəsmiləri iştirak ediblər. Həsənriz kəndində daimi yaşayış üçün köçürülən ailələrə bərpa edilmiş fərdi yaşayış evlərində mənzillər verilib.

Qeyd edək ki, hazırda Qarabağda və Şərqi Zəngəzurda, ora köçürülən keçmiş məcburi köçkünlərlə yanaşı, bu bölgədə aparılan layihələrin icrasında çalışan, həmçinin ayrı-ayrı dövlət qurumlarının yerli bölmələrində xidməti vəzifələrini yerinə yetirən, yenidən fəaliyyətə başlamış səhiyyə, təhsil, mədəniyyət, turizm, sənaye, energetika müəssisələrində işləyən, ümumilikdə, 40 minə yaxın insan yaşayır.

09_27 IYUI-QARA.qxd 3/6/2025 7:49 PM Page 9



# Arif Hacılıdan Etibar Məmmədova cavab



***Müsavatın Məclis sədri: "O, AXC-dən ayrılanda süverenlik məsələsi artıq keçilmiş mərhələ idi"***

Azərbaycan Milli İstiqlal Partiyasının (AMİP) lideri Etibar Məmmədov Azərbaycan Xalq Cəbhəsindən fikir ayrılığına görə çıxıdığını deməsi müzakirə mövzusuna çevrilib.

O, modern.az-a müsahibəsində "1991-ci ilin avqustunda Xalq Cəbhəsinin birinci qurultayı ərəfəsində mən yenə də təkliflə çıxış etdim ki, qurultayda dəyişiklik lazımdır. Biz müstəqil dövlətin yaradılmasını proqram kimi bu qurultayda qəbul etməliyik. Onlar yenə də bunun əleyhinə çıxdılar və mən elan etdim ki, Xalq Cəbhəsindən ayrılıram. İki ay sonra, oktyabrda müstəqillik reallaşdı, onların iddialarının səhv olduğu isə faktiki olaraq təsdiqləndi. İki ay əvvəl öz qurultaylarında müstəqilliyi proqram kimi qəbul etmədilər, ancaq mənim fikrim o idi ki, vaxtında qəbul olunsaydı və sonradan demokratikləşməyə biz mərhələ-mərhələ keçsəydik, bu daha yaxşı nəticələr verə bilərdi. Sonra isə onların hakimiyyəti demokratik prinsiplərlə idarə edəcəyi vəd olunsa da, vədlərini həyata keçirməyə hazır olmadıqları göründü", - deyib.

Müsavat Partiyasının Məclis sədri Arif Hacılı Etibar Məmmədova cavab verib. O, sosial şəbəkədə yazdığı cavabı 20 yanvar şəhidlərinin dəfnindən sonra Bakıda keçirilən ilk mitinqin videosu ilə birgə təqdim edib: "Etibar Məmmədov deyib ki, guya Xalq Cəbhəsi ilə fikir ayrılığı Azərbaycanın müstəqillik məsələsi ilə bağlı olub. Görüntüdə 22 yanvar, şəhidlərimizin dəfnindən sonra ölkədə keçirilən ilk mitinqlərdən biridir. Burada AXC nin müstəqilliklə bağlı ümumi mövqeyi ifadə edilib.

Yəni, Etibar Məmmədov AXC-dən ayrılanda süverenlik məsələsi artıq keçilmiş mərhələ idi.

Etibar Məmmədov AXC-ni bundan azı il yarım sonra 1991-ci ildə, bu təşkilatla bağlı planları baş tutmadıqdan sonra tərk edib.

## "İğdır-Naxçıvan qaz kəməri enerji təhlükəsizliyinə töhfə verəcək" - Deputat



***"İğdır-Naxçıvan qaz kəməri regionun enerji təhlükəsizliyinə töhfə verəcək. Həmçinin, İğdır-Naxçıvan qaz kəməri Naxçıvanın mavi qaza olan tələbatının bir mənbədən asılılığının aradan qaldırılması baxımından vacibdir".***

Bunu "Unikal"a açıqlamasında deputat Vüqar Bayramov deyib. O bildirib ki, kəmər vasitəsilə Naxçıvana ildə 750 milyon kubmetrə yaxın mavi qaz nəql ediləcək, daha sonra mavi qazın illik həcmi iki dəfə artırılacaq, bu da Naxçıvanın artan tələbinin ödənilməsinə imkan yaradacaq.

"Kəmərin əsas üstünlüyü Naxçıvanda mavi qaza olan tələbin fasiləsiz ödənilməsinin təmin edilməsi və Naxçıvanın enerji təhlükəsizliyinin formalaşdırılmasıdır. Bundan əlavə, Naxçıvan tam olaraq mavi qazı qardaş Türkiyə vasitəsilə alacaq. Bu da asılılığı aradan qaldırmış olacaq. Digər tərəfdən, bu cür kəmərlərin çəkilməsi regionda enerji təminatı baxımından vacibdir. Hətta bu layihə bütövlükdə regionun enerji təhlükəsizliyinə töhfə kimi qiymətləndirilir. Gələcəkdə, xüsusilə, Zəngəzur dəhlizi istifadəyə verildikdən sonra region üçün xüsusi töhfəsi olacaq. Kəmər həm də Azərbaycan və Türkiyə arasında münasibətlərin dərinləşməsini göstərən əsas layihələrdən biri kimi çıxış edəcək.

Qeyd edək ki, ötən gün Ankarada İğdır-Naxçıvan qaz kəmərinin videobağlantı formatında açılış mərasimi keçirilib. Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev və Türkiyə Respublikasının Prezidenti Rəcəb Tayyib Ərdoğan tədbirdə iştirak ediblər.

***Anar Kəlbiyev***

# Səhiyyə Nazirliyi ilə savaşa çıxan özəl klinikanın arxasındakı gizli məmur...

## Bakıdakı beş filialından birinin fəaliyyəti nəhayət ki, dayandırılan "Laser Beauty Clinic"i elə nazirliyin özündə himayə edirlər? - Böyük şübhə!

***Yola salmaq üzrə olduğumuz həftə bir müddətdir yerli medianın gündəmində olan "Laser Beauty Clinic"lə bağlı yeni xəbər yayıldı. Xəbərdə bildirilirdi ki, sözügedən klinikanın filiallarından birinə dair lisenziya əlavəsi dayandırılıb. Bu barədə İqtisadiyyat Nazirliyindən məlumat verilib.***

Qeyd olunub ki, Səhiyyə Nazirliyinin bir müddət əvvəl apardığı yoxlamalar nəticəsində "Laser Beauty Clinic"in filiallarından birində (Bakı şəhəri, Yasamal rayonu, İsmayılbəy Qutqaşınlı küçəsi) nöqsanlar aşkar edilib və klinikanın lisenziyasının dayandırılması və ya ləğvi ilə bağlı İqtisadiyyat Nazirliyinə müraciət daxil olub.

Məlumata görə, Səhiyyə Nazirliyinin lisenziya şərtlərinin pozulması hallarının aradan qaldırılmasına dair göstərişləri yerinə yetirmədiyi üçün "Laser Beauty Clinic"in həmin filial üzrə lisenziya əlavəsi İqtisadiyyat Nazirliyinin inzibati aktı ilə dayandırılıb, hazırda fəaliyyəti dayandırılmış filiala martın 12-dək nöqsanların aradan qaldırılması üçün müddət qoyulub.




Xatırladaq ki, "Lisenziyalar və icazələr haqqında" qanuna uyğun olaraq nöqsanlar aradan qaldırıldıqdan sonra lisenziya əlavəsinin bərpası üçün yenidən müraciət oluna bilər. Göstərilən müddətdə nöqsanlar aradan qaldırılmadıqda isə lisenziya ləğv edilir.

Qeyd edək ki, hazırda İqtisadiyyat Nazirliyi 23 növ fəaliyyət üzrə lisenziya verir. Lisenziyalar verilərkən sahibkarlıq fəaliyyəti növünün xüsusiyyətlərindən asılı olaraq, aidiyyəti dövlət qurumlarının rəyi əsas götürülür.

Sahibkarlar lisenziya almaq üçün fəaliyyət göstərəcəkləri ərazi üzrə müvafiq "Asan xidmət" mərkəzi, KOB evi və ya "lisenziya.gov.az" portalı vasitəsilə İqtisadiyyat Nazirliyinə elektron formada müraciət edə bilərlər. Təqdim edilən sənədlər qaydasında olduqda lisenziya 10 iş günündən gec olmayaraq verilir. Lisenziya verilməsinə görə dövlət rüsumu ödənilir. Regionlarda sahibkarlığın təşviqi məqsədilə dövlət rüsumuna 50 faiz güzəşt edilir.

Qeyd edək ki, "Laser Beauty Clinic"in Bakı şəhərində 5 filialı mövcuddur. Klinika şəbəkəsinin direktoru Rəna Soltanovadır.

"Laser Beauty Clinic" uzun müddətdir ki, qalmaqallı xəbərlərlə gündəmə gəlir. Məsələn, bir müddət Azərbaycanın Xalq artistlərindən birinin gəlininin səhhətində ciddi problem yaranması barədə xəbərlərdə də bu klinikanın adı keçirdi. Həmin xəbərlərdə iddia edilirdi ki, adının açıqlanmasını istəməyən xəstə "Laser Beauty Clinic"in "Neapol" filialında estetik əməliyyat olunaraq evə buraxıldıqdan sonra - gecə saatlarında səhhəti qəfil pisləşib və komaya düşüb. Yaxınları xəstəni təcili Mərkəzi Gömrük Hospitalına aparıblar. Xəstə sözügedən hospitalda 10 gün koma vəziyyətində qalıb. Şükür ki, xəstə Gömrük Hospitalının həkimləri tərəfindən xilas oluna bilib.

Məlumatda diqqət çəkən məqam o idi ki, xəstənin ilkin əməliyyat edildiyi "Laser Beauty" Klinikasının "Neapol" filialının estetik əməliyyatların aparılması üçün uyğun lisenziyaya malik olmadığı bildirilir.

Hətta Səhiyyə Nazirliyinin Analitik Ekspertiza Mərkəzi də bu məlumatı təsdiqləmişdi. Nazirlikdən Qaynarinfo-ya verilən açıqlamaya görə, "Neapol" filialına yalnız ambulator cərrahiyyə əməliyyatlarının aparılması üçün lisenziya verilib. Sitat: "Klinikada ancaq kiçik cərrahi, o cümlədən estetik müdaxilələrə icazə verilir. Amma böyük plastik cərrahiyyə və yaxud ümumi cərrahiyyə işləri görülə, estetik əməliyyatlar da oluna bilməz. Bir də ki, baxır əməliyyatın növünə. Hansısa yüngül işlər görülə bilər, amma məsələn, burun əməliyyatı, üzdə müəyyən dəyişikliklər və s. bunlar oluna bilməz. Bunların hər biri stasionar xidmət tələb edir, filialda isə ancaq ambulator cərrahiyyə var".

Lakin "Laser Beauty Clinic"in "Neapol" filialının baş həkimi Natavan Əmirova Xalq artistinin gəlini ilə bağlı məlumatı təsdiqləməyərək lisenziya ilə bağlı sualın cavabında isə demişdi ki, rəhbərlik etdiyi filialın ümumi tibbi fəaliyyət göstərməsi üçün lisenziyası var. Onun sözlərinə görə, lisenziyanın əlavəsində cərrahi əməliyyatların aparılmasına icazə də yer alır.

Təəccüblü olan isə son illər haqqında qalmaqallı xəbərlərin səngimədiyi, hətta yuxarıda yazılanlardan da göründüyü kimi, yeri gəldikdə Səhiyyə Nazirliyinə belə meydan oxumaqdan çəkinməyən klinikanın öz fəaliyyətini normal şəkildə necə davam etdirdiyidir. Bəzi iddialara görə, adı çəkilən müəssisə elə nazirlikdəki bəzi şəxslər tərəfindəın himayə olunur. "Klinikanın əsası 2010-cu ildə qoyulub. Son bir neçə ildə onun haqqında saysız-hesabsız şikayətə rast gəlmək mümkündür. Lakin maraqlıdır ki, Səhiyyə Nazirliyi indiyədək həmin şikayətlərə göz yumub. Yalnız "Laser Beauty Clinic"lə bağlı narazılıqlar get-gedə böyüdükdən sonra onun fəaliyyətini təftiş etmək qaçılmaza çevrilib. Sadalananlardan belə anlaşılır ki, nazirlikdə kim(lər)sə uzun müddət sözügedən klinikanı qorumaqla məşğul olub" - iddialar bu yöndədir...

Həmçinin "Laser Beauty Clinic"in digər filiallarının da lisenziya əlavəsinin dayandırıla biləcəyinə dair iddialar dolaşır. Bu deyilənlərin nə qədər doğru olub-olmadığını isə zaman göstərəcək.

***Toğrul Əliyev***

# Məmurların səssiz qaldığı “səssiz müharibə”...

## Genefondumuzu təhdid edən biznesin tükürpədən pərdəarxası - Onu kimlər himayə edir?

***“Ölkəmizə qarşı aparılan səssiz müharibə kateqoriyalarından biri də enerji içkiləri ilə bağlıdır. Burada da hesabat hazırlanmalıdır”. Bunu deputat Hikmət Babaoğlu Milli Məclisin İnsan hüquqları komitəsinin martın 3-də keçirilən iclasında İnsan Hüquqları üzrə Müvəkkilin (Ombudsmanın) 2024-cü il üzrə məruzəsinin müzakirəsi zamanı deyib.***

“Enerji içkilərinin satışı və istifadəsini də insan hüquqlarının pozulması kimi kateqoriyaya daxil etməliyik. Enerji içkilərindən istifadə edənlərin 23-25 yaşlarında şəkər xəstəlikləri baş qaldırır, tükənmişlik sindromu özünü büruzə verir. Bu isə demoqrafik proseslərə təsir edir və onların övladları olmur. Bu, çox dəhşətli bir şeydir. Enerji içkiləri genofondu qurutmaq üçün xüsusi düşünülmüş səssiz müharibə vasitələrindən biridir”, - deyə millət vəkili bildirib.

“Unikal” mövzunun aktuallığını nəzərə alıb son zamanlar Azərbaycanda geniş yayılan, xüsusilə gənclər və yeniyetmələr tərəfindən içilən enerji içkiləri ilə bağlı araşdırma aparıb.

### Zərərlərini saymaqla bitmir: qan təzyiqi, şəkər, yuxusuzluq, əsəbilik...

Azərbaycan Qida Təhlükəsizliyi Agentliyinin (AQTA) rəsmi saytındakı materiallardan belə aydın olur ki, enerji içkiləri tərkibində kofein, taurin, vitaminlər, bitki mənşəli əlavələr, şəkər, yaxud digər dadlandırıcı maddələr olan, çəki itkisinə səbəb olan, dözümlülük, fiziki gücü və diqqəti gücləndirən içki kimi reklam edilir.

Enerji içkilərinin istehsalında istifadə olunan kofein, şəkər, taurin, quarana kimi maddələr, rəngləyici qida əlavələri günlük normadan artıq qəbul edildiyi halda insan sağlamlığına müəyyən mənfi təsir edə bilər.

Kofein qida sənayesində çox istifadə olunan psixoaktiv maddədir və reseptsiz olaraq satılır. Kofein, fiziki olaraq ürək ağrıları riskini artırır, skelet əzələlərini stimullaşdırır, insulin həssaslığını azaldır. İnsan orqanizmi kofeinin müəyyən ölçüdə qəbul edilməsinə tolerantdır, ancaq böyük həcmdə enerji içkisi kimi qəbul edilməsi daha ciddi fəsadlara, qıcolmalara, maniya, insult və qəfil ölümə səbəb ola bilər. Sağlam, yetkin insanların gün ərzində ?400 mq kofeindən istifadə etməyi təhlükəsiz sayılır. Kəskin klinik toksik təsir 1 qr-dan başlayır, 5-10 qr arasında isə istifadə ölüm hallarına gətirib çıxara bilər. Ancaq Avstraliyada tərkibində 320 mq-dan çox kofein miqdarı olan 5 enerji içkisi qadağan olunub. ABŞ-da enerji içkilərinin tərkibindəki kofein miqdarının 200 mq-dan az olması daha təhlükəsiz sayılır. Gün ərzində enerji içkisinin normadan artıq qəbulu orqanizmdə kofein miqdarını artırması səbəbindən təhlükəli ola bilər. Bu səbəbdən enerji içkiləri qəbul edərkən bir neçə məqama diqqət etmək lazımdır:

- Məhsulu alarkən onun tərkibi ilə tanış olun.



- Bu içkilərin hamilə qadınlar və uşaqlar tərəfindən qəbul edilməsi qadağandır.
- Enerji içkiləri spirtli içkilərlə birlikdə qəbul edilərsə, zəhərlənməyə səbəb ola bilər.

Enerji içkilərinin tərkibindəki şəkər tez bir zamanda qanla təmasa girir, oksidləşmə prosesində iştirak edir, əzələləri, beyni və digər həyati əhəmiyyət daşıyan orqanları enerji ilə təmin edir. Artıq dozada qəbul edildikdə qanda təzyiqin qəfildən qalxmasına və ya qanda şəkərin səviyyəsinin artmasına səbəb ola bilər. Yüksək qan təzyiqi və qanda şəkərin artması, əsəbilik, yuxusuzluq kimi hallara gətirib çıxara bilər.

Enerji içkilərinin tərkibinə əlavə edilən kofeinin miqdarı, insan sağlamlığına təhlükə yarada bilməyəcək səviyyədə olmalıdır. Bu içkiləri qəbul etmək insanlarda, xüsusi ilə də kiçik yaş qruplarında olan uşaqlarda yuxusuzluq, piylənmə, böyrək xəstəlikləri, sinir sisteminin pozğunluqlarına və s. səbəb ola bilər.

Ümumdünya Səhiyyə Təşkilatının Avropa Şöbəsinin 2014-cü ildə açıqladığı hesabata əsasən, enerji içkiləri gənclərin sağlamlığında müəyyən problemlər yarada bilər. Bu qida məhsulları daha çox fiziki və zehni gücü artıran məhsullar olaraq ictimaiyyətə təqdim edilsə də, insanların sağlamlığı üçün zərərli tərəfləri mövcuddur. “Ümumdünya Səhiyyə Təşkilatı”nın hazırladığı hesabatda enerji içkiləri üçün kofein məhlulunun maksimum həddinin müəyyənləşməsini, marketinq fəaliyyətlərində standartların tətbiq olunmasını, enerji içkilərinin uşaqlara satılmasının qarşısının alınmasını məsləhət görür.

### Enerji içkiləri bazarında böyük saxtakarlıq!

Yeri gəlmişkən, AQTA tərəfindən müxtəlif enerji içkilərinin mütəmadi monitorinqi aparılır. Sözügedən monitorinqlər nəticəsində ilginc bir saxtakarlıq ortaya çıxıb. Məlum olub ki, əksər enerji içkilərinin tərkibindəki kofenin, digər maddələrin miqdarı onun enerji içkisi olmadığını deməyə əsas verir.

Məsələ burasındadır ki, tərkibindəki kofenin miqdarı 15-dən aşağı olduğuna görə, o, enerji içkisi sayılmır. Bu adice sərinləşdirici içkidir.

Lakin bir sualın cavabı açıq qalır: sərinləşdirici içkilər niyə məhz enerji içkiləri adı altında satılır? Həmin məhsulların tərkibi haqqında qablaşdırmanın üzərindəki yalan məlumatların yer almasına niyə yol verilir? Əgər enerji içkilərinin stimullaşdırma effekti yoxdursa, onlar adi sərinləşdirici içkilərdirsə, belə bir saxtakarlığa, istehlakçıların aldadılmasına kimlər, hansı cəsarətlə qol qoyurlar? Və ən əsası, indiyədək məlum məsələ ilə bağlı bir sıra istehsalçı şirkət cəzalandırıldığı halda onlar hələ də öz fəaliyyətlərini necə davam etdirə bilirlər? Daha doğrusu, bu istehsalçıların oxşar əməllərini davam etdirmədiyinin təminatı varmı?!

### Enerji içkiləri Azərbaycan bazarını necə bürüdü?

Çoxsaylı fəsadlarına baxmayaraq, enerji içkiləri Azərbaycan bazarını bürüyüb, üstəlik, bu içkilər geniş şəkildə reklam edilir. Bundan başqa, 2020-ci ildə AQTA-nın Kollegiyası tərəfindən təsdiqlənən “Enerji içkilərinə dair müvəqqəti sanitariya normaları və qaydaları”nda bu içkilərin 18 yaşına çatmamış şəxslərə satışı yasaqlansa da, həmin qadağaya riayət edildiyini söyləmək mümkün deyil. Üstəlik, enerji içkilərinin etiketlərində ”Yaşlılara, hamilə və süd verən qadınlara, diabetdən, ürək fəaliyyətinin pozuntusundan, böyrək çatışmazlığından, hipertonik xəstəliklərdən, sinir oyanıqlığından, yuxusuzluqdan əziyyət çəkən şəxslərə, metabolizm problemi olan insanlara istifadəsi tövsiyə olunmur”, ”Gündəlik olaraq 500 ml-dən çox istifadə olunması tövsiyə edilmir” kimi yazıların qeyd edilməsi mütləq tələb kimi qoyulub. Ancaq həmin tələbə də riayət olunmadığı aşkardır.

Nəticədə haqlı suallar yaranır: enerji içkilərinin istehsalı və ya idxalı ilə məşğul olanlar 5 il öncə müəyyənləşdirilən norma və tələblərə laqeyd münasibət göstərmək cəsarətini hardan alırlar? Belə anlaşılmırmı ki, enerji içkiləri bazarında müəyyən səlahiyyət sahiblərinin də payı, maraqları var və bu da əhalinin sağlamlığını, eləcə də ölkənin genofondunu təhdid edən məhsulun idxalçı, yaxud istehsalçılarını rəsmi xəbərdarlıqlara məhəl qoymamağa cəsarətləndirir?

Əks təqdirdə zərərləri hətta parlament tribunasından dilə gətirilməyə başlanan enerji içkiləri ilə bağlı müəyyənləşdirilmiş müvafiq sanitariya normaları və qaydalarının nümayişkaranə şəkildə gözardı edilməsinin başqa hansı ağlabatan izahı ola bilər?!

***Sənan Mirzə***




# “Kənddən Şəhərə” Novruz yarmarkası təşkil olunacaq

***Novruz bayramı ilə əlaqədar Kənd Təsərrüfatı Nazirliyinin tabeliyindəki “Aqrar Tədarük və Təchizat” ASC tərəfindən 8-19 mart tarixlərində “Kənddən Şəhərə” Novruz yarmarkası təşkil olunacaq.***

”Unikal” xəbər verir ki, 12 gün fasiləsiz davam edəcək yarmarkanın təşkilində əsas məqsəd bayram günlərində vətəndaşların kənd məhsullarına artan tələbatlarını yerli və sağlam məhsullarla təmin etmək, fermer təsərrüfatları üçün alternativ satış kanalı yaratmaqdır.

Nərimanov rayonu, Fətəli xan Xoyski küçəsi, 5 (“Gənclik” metro stansiyasının çıxışı) ünvanında keçiriləcək yarmarkanın əsas üstünlüklərindən biri məhsulların fermerlərin özləri tərəfindən birbaşa olaraq satışa çıxarılmasıdır.

Yarmarkada ümumilikdə 20-dən artıq regiondan 55-dən çox fermerin iştirakı gözlənilir. Fermerlər 150-dən artıq çeşiddə kənd təsərrüfatı və qida məhsullarının satışını həyata keçirəcəklər. Qeyd edək ki, “Kənddən Şəhərə” Novruz yarmarkasında satışa çıxarılacaq məhsullar yarmarkada iştirak üçün əvvəlcədən qeydiyyatdan keçən fermerlər tərəfindən alıcılara təqdim olunacaq. Həmin fermerlər heç bir ödəniş etmədən piştaxta, tərəzi, soyuducu və digər ləvazimat və avadanlıqlarla tam təchiz olunmaqla öz məhsullarını şəhər sakinlərinə təqdim edəcəklər.

Satışa çıxarılan məhsulların keyfiyyətinə nəzarət etmək məqsədilə yarmarkada hər gün Azərbaycan Qida Təhlükəsizliyi Agentliyinin Səyyar Qida Laboratoriyası fəaliyyət göstərəcək. Vətəndaşlar yarmarkada satışa çıxarılan hər hansı bir məhsulun keyfiyyət göstəricilərini öyrənmək üçün laboratoriyanın xidmətlərindən faydalana bilərlər.



# Məhəmməd Əmin Rəsulzadənin anım günüdür

***Bu gün Şərqdə ilk demokratik respublikanın - Azərbaycan Xalq Cümhuriyyətinin qurucularından olan Məhəmməd Əmin Rəsulzadənin anım günüdür.***

"Unikal" xəbər verir ki, Məhəmməd Əmin Rəsulzadə 1884-cü il yanvarın 31-də Bakının Novxanı kəndində anadan olub.

Gənc yaşlarında sosial demokratlarla birgə "Hümmət" təşkilatının yaranmasında iştirak edib. Çarizmin təqiblərinə məruz qalaraq 1909-cu ildə İrana mühacirət edən Rəsulzadə bir müddət burada "İrane-nou" qəzetinin baş redaktoru kimi çalışıb, məşrutə inqilabı yatırıldıqdan sonra Türkiyəyə mühacirət edib.

O, 1911-ci ildə Müsavat Partiyasına üzv qəbul edilib, 4 il sonra Müsavat Partiyası Mərkəzi Komitəsinin sədri seçilib. 1918-ci ildə Fətəli Xan Xoyski və digərləri ilə birlikdə Şərqdə ilk respublikanın yaradılmasını rəsmi şəkildə elan edib. 1920-ci il aprelin 28-də bolşevik işğalından sonra həbs edilib. Az sonra Stalinin göstərişi ilə həbsdən azad edilərək Moskvaya aparılıb. Stalinin təkidlərinə baxmayaraq, o, Sovet hakimiyyəti ilə əməkdaşlıqdan imtina edərək xaricə üz tutub.

Məhəmməd Əmin Rəsulzadə 1955-ci il martın 6-da Ankarada dünyasını dəyişib və Əsri məzarlığında dəfn edilib.

1992-ci il dekabrın 24-də Azərbaycan Prezidenti Əbülfəz Elçibəy "Görkəmli ictimai-siyasi xadim Məhəmməd Əmin Rəsulzadənin totalitar sovet rejimi dövründə repressiyaya məruz qalmış ailə üzvlərinin Azərbaycana qaytarılması və onların sosial-məişət məsələlərinin həlli haqqında" sərəncam imzalayıb.

29 dekabr 1993-cü ildə Azərbaycan Prezidenti Heydər Əliyev "Azərbaycanın görkəmli ictimai-siyasi xadimi Məhəmməd Əmin Rəsulzadənin anadan olmasının 110 illik yubileyinin keçirilməsi haqqında" sərəncam imzalayıb.

22 noyabr 2013-cü ildə Azərbaycan Prezidenti İlham Əliyev Məhəmməd Əmin Rəsulzadənin 130 illik yubileyinin keçirilməsi haqqında Sərəncam verib. Sərəncama əsasən, respublikada və respublikadan kənarda silsilə yubiley tədbirləri keçirilib.

Azərbaycan Xalq Cümhuriyyətinin qurulmasının 100-cü ili münasibətilə Prezident İlham Əliyev tərəfindən 2018-ci ili "Cümhuriyyət ili" elan edilib.

30 dekabr 2023-cü ildə isə Azərbaycan Prezidenti İlham Əliyev Məhəmməd Əmin Rəsulzadənin 140 illiyinin qeyd edilməsi haqqında Sərəncam imzalayıb.

Eyni zamanda, Məhəmməd Əmin Rəsulzadənin məzarı ötən il abadlaşdırılıb.

# İcra başçılarının gözü qarşısında milyonlarla manatlıq cinayət...

## Rayonlarda onlardan xəbərsiz "quş uçmadığı" halda, ağaclar bu qədər rahat şəkildə necə baltalanır? - Şair Alxasov dərsi!

***Bu günlərdə məlum oldu ki, Sabirabad və Tərtər rayonları ərazisində qanunsuz ağackəsmə faktları ilə bağlı araşdırmalar aparılıb.***

Baş Prokurorluğun Mətbuat xidmətindən verilən məlumatda bildirilib ki, araşdırma zamanı Sabirabad rayonunda "Azera Toxumçuluq" MMC, "Aran Agro" MMC və digər hüquqi şəxslərin vəzifəli şəxsləri, Tərtər rayonunda isə fiziki şəxslər tərəfindən qanunvericiliklə nəzərdə tutulmuş qaydaya zidd olaraq çoxlu sayda yaşıllıqların, o cümlədən ağac və kolların məhv edilməsi nəticəsində təbiətə 3 milyon manata yaxın ziyan vurulmasına əsaslı şübhələr müəyyən edilib.

Qeyd olunan faktlarla bağlı Cinayət Məcəlləsinin 188.3 (torpaq üzərində mülkiyyət, istifadə və ya icarə hüququnu pozma), 259.2.4 (Ağacların, kolların və ya digər yaşıllıqların qanunsuz kəsilməsi külli miqdarda ziyan vurduqda) və 308.2-ci (ağır nəticələrə səbəb olan vəzifə səlahiyyətlərindən sui-istifadə) maddələri ilə cinayət işləri başlanaraq istintaqın aparılması üçün aidiyyəti üzrə prokurorluq və daxili işlər orqanlarına göndərilib.



Bundan əvvəl isə məlumat yayılmışdı ki, Maştağada "Köhnə klub" adlanan ərazidə çoxillik ağacları kəsirlər. Qəsəbədəki Heydər Əliyev parkı ilə birləşən yerdə - poçt, polis bölməsi və vağzala yaxın hissədə artıq ağaclar kəsilib və məhv edilib. İllərdir əkilmiş qocaman ağaclardan heç nə qalmayıb. Həmin ərazidə yaşayan bir qrup sakinin yerli mediaya müraciətindən belə anlaşılırdı ki, axşamlar işıqlar söndürülür. Sonra da qaranlıqda ağacları məhv edirlər ki, sakinlər görə bilməsinlər. Sitat: "Həmin ərazidə 40-50 yaşında ağaclar var idi. Başladılar orada obyekt tikməyə. Obyektə görə o ağaclardan təxminən 20-25-i kəsildi. Əvvəlcə budadılar ki, hiss olunmasın, sonra kəsməyə başladılar. Hamısı da zeytun və şam ağacları idi. Bu məsələ ilə bağlı aidiyyəti qurumların tədbir görməsi vacibdir. Bu qanunsuzluğu edən cəzalandırılmalı, digər ağaclar xilas edilməlidir".

Problemlə bağlı Ekologiya və Təbii Sərvətlər Nazirliyinin Dövlət Ekoloji Təhlükəsizlik Xidmətindən bildirilib ki, sözügedən ərazidə qanunsuz ağac kəsintisi faktı aşkarlanıb. Sitat: "Faktla bağlı akt tərtib edilib. Təbiətə dəymiş ziyanın məbləği cinayət tərkibi yaratdığından məsələyə hüquqi qiymət verilməsi üçün toplanmış materiallar Baş Prokurorluğa göndərilməsi üçün hazırlanır".

Həmçinin bir neçə gün öncə Dövlət Ekoloji Təhlükəsizlik Xidmətinin əməkdaşları tərəfindən keçirilən nəzarət tədbirləri zamanı Binəqədi rayonu, 7-ci mikrorayon, Abay Kunanbayev küçəsində ağac kəsintisi faktı aşkar edilib. Qurumdan verilən xəbərə görə, faktla bağlı akt tərtib olunub.

Təbiətə dəymiş ziyanın məbləği cinayət tərkibi yaratdığından məsələyə hüquqi qiymət verilməsi üçün toplanmış materiallar Baş Prokurorluğa göndərilməsi üçün hazırlanır.

Kəsilmiş ağacların yerinə Dövlət Ekoloji Təhlükəsizlik Xidmətinin təşkilatçılığı və dəstəyi ilə ərazidə yaşayan sakinlərlə birgə yeni ağaclar əkilib.

Qeyd edək ki, bunlar yaşıllıqların məhvi ilə bağlı sadəcə bir neçə gündə aşkarlanan faktlardır. Aydın görünür ki, son vaxtlar belə hallar tamamilə adi hal alıb.

Ən maraqlısı budur ki, ağacların kəsilməsi yerli icra hakimiyyətlərinin (İH) gözü qarşısında baş verir. Bir az da dəqiqləşdirək: İH nümayəndələrindən xəbərsiz onların məsul olduqları rayonlarda "quş uçmazkən", nədənsə yaşıllıqların məhvi məsələsində rayon rəhbərləri sanki heç nə baş verməmiş kimi davranırlar. Hətta əksər zamanlarda ağacların kəsilib yerində müxtəlif obyektlərin, binaların inşası məhz icra başçılarının qeyri-rəsmi razılığı müqabilində həyata keçirilir.

Nümunə olaraq Qusarın keçmiş icra başçısı Şair Alxasovun ötən il vəzifəsindən azad edilməsini xatırlatmaq kifayətdir. Həmin vaxt bildirilirdi ki, o, Qusarda meşə sahəsini qanunsuz satdığı, təbiətə külli-miqdarda ziyan vurduğu üçün işdən çıxarılıb. Belə ki, Alxasovun öz postunu itirməsindən günlər əvvəl Baş Prokurorluq adı çəkilən rayonda məhv edilən meşə sahəsi ilə bağlı məlumat yaymışdı. Məlumatda qeyd olunurdu ki, araşdırmalarla, vəzifəli şəxslər tərəfindən səlahiyyətlərindən sui-istifadə edilərək çoxillik ağaclarla əhatə olunmuş meşə fonduna aid 22,3 hektar (ha) torpaq sahəsinin təyinatının əsassız şəkildə dəyişdirilib yaşayış məntəqələrinin torpaqları kimi Qusar şəhər bələdiyyəsinin balansına verilməsinə, meşə fondunun ziyan və itkisinin natamam və qeyri-dəqiq hesablanmasına, vəzifə saxtakarlığına yol verilərək torpaq sahəsinin qanunsuz olaraq müxtəlif vətəndaşlara satılmasına, habelə torpaq sahələrində müxtəlif diametrli və cinsli ağacların qanunsuz kəsilməsi nəticəsində təbiətə külli miqdarda ziyan vurulmasına əsaslı şübhələr müəyyən edilib. Qeyd olunanlar hadisə yerinə baxış və istintaq hərəkəti, protokolları, fotoşəkillər, videogörüntülər, müxtəlif dövlət qurumlarının rəyləri, izahatlar və toplanmış digər sənədlərlə təsdiq olunub.

Toplanmış material əsasında Cinayət Məcəlləsinin 259.2.4 (külli miqdarda ziyan vurmaqla qanunsuz ağac kəsmə) və 308.1 (vəzifə səlahiyyətlərindən sui-istifadə), 313 (vəzifə saxtakarlığı) və 314.2-ci (səhlənkarlıq ağır nəticələrə səbəb olduqda) maddələri ilə cinayət işinin başlanıb və ibtidai istintaqın aparılması Baş prokuror yanında Korrupsiyaya qarşı Mübarizə Baş İdarəsinə tapşırılıb.

Təkcə bu fakt rayonlarda, şəhərlərdə yaşıllıqların yerli icra hakimiyyəti nümayəndələrindən xəbərsiz şəkildə məhv edilməsinin mümkün olmadığını bir daha göz önünə sərir. Elə ona görə də ayrı-ayrı şəhərlərdə, rayonlarda qanunsuz ağackəsmə faktları ilə bağlı araşdırmalar aparılarkən İH nümayəndələrinin məsuliyyəti (ən azından mənəvi məsuliyyəti, daha doğrusu məsuliyyətsizliyi!) də diqqətdən yayınmamalıdır...

***Toğrul Əliyev***

09_27 IYUl-QARA.qxd 3/6/2025 7:49 PM Page 12



**5.3.18. gender, ailə və demoqrafiya məsələlərinin işıqlandırılması;**

Azərbaycan Respublikasının Medianın İnkişafı Agentliyi

# Çoxuşaqlı ailələrin sayı artacaq

## Deputat: "Əgər bu gün bütün uşaqlı ailələrə uşaqpulu verə bilmiriksə, heç olmasa 3-4 uşağı olan ailələrə müavinət verilməlidir".



***Azərbaycan hələ sovet dövründən çoxuşaqlı ailələrin sayına görə MDB ölkələri arasında lider olub. Həmin dövrdə ölkəmizdə demoqrafik problemin yaranmaması, doğuşun stimullaşdırılması üçün bir sıra tədbirlər həyata keçirilib. Dünyaya gətirdiyi uşaq sayı 10-u ötən qadınlara "Qəhrəman ana" medalı verilib, bir sıra güzəştlər tətbiq olunub. Pensiya təminatı zamanı məhz bu insanlara böyük güzəştlər olunub. Belə ki, həmin dövrdə iş stajı olmayan "Qəhrəman ana"lar isə 50 yaşına çatdıqda pensiyaya çıxa bilərdi.***

Azərbaycanda "Qəhrəman ana"ların sayı barədə sonuncu statistik hesablama 2005-ci ildə aparılıb. Həmin il 10 və daha çox uşaq doğub tərbiyə etmiş pensiyaçıların sayı 17 min 640 nəfər olub. Onlardan 17 199 nəfəri "Qəhrəman ana", 708 nəfəri isə "Qəhrəman Ana" medalı ilə yanaşı, "Şöhrət", "Analıq şöhrəti", "Analıq şərəfi" ordenləri, "Arxa cəbhədə fədakar əməyə görə", "Rəşadətli əməyə görə" medalları və digər orden və medallarla təltif edilib.

Son hesablamalara görə, Azərbaycanda hər 100 pensiyaçı "Qəhrəman ana"ya 103 uşaq düşür. Respublikada "Qəhrəman ana"ların uşaqlarının sayına görə Ağdaş rayonu birincidir - 2552 nəfər. Bu anaların hər birinə orta hesabla 11 uşaq düşür. 2005-ci ildə Lənkəran rayonunda 1650, Cəlilabadda 1379, Masallıda 1202, Naxçıvan Muxtar Respublikasında 887, Astarada 853, Yardımlıda 668, Bakı şəhərində 629, Sabirabadda 544 "Qəhrəman Ana" olub.

Artıq ölkəmizdə illər sonra çoxuşaqlı ailələrin sayının artması yönündə stimullaşdırıcı tədbirlərə başlanılacaq.

Belə ki, bugünlərdə Milli Məclisə təqdim olunan yeni qanun layihəsi ilə 5 yox, 3 uşağı olanlar da çoxuşaqlı ailə hesab ediləcək.

Milli Məclisin Ailə, Qadın və Uşaq Məsələləri Komitəsinin üzvü Mehriban Vəliyeva bildirib ki, bir neçə dəfə ölkədə çoxuşaqlı ailə anlayışının 5 uşaqlıdan 3 uşaqlıya endirilməsi ilə bağlı təkliflər səsləndirilib. Hazırda isə təkliflər üzərində iş gedir. Bu təkliflər ölkədə demoqrafik inkişafla bağlı hazırlanacaq dövlət proqramına daxil ediləcək.

Millət vəkilinin sözlərinə görə, ölkədə bu qəbildən olan 100 mindən çox ailə var. Yəni çoxuşaqlı ailə modeli 5-dən 3-ə endirilsə, 100 mindən çox ailədə yaşayan uşaqlar sosial müavinət ala biləcəklər".

Deputat Razi Nurullayev də deyir ki, əgər bu gün bütün uşaqlı ailələrə uşaqpulu verə bilmiriksə, heç olmasa 3-4 uşağı olan ailələrə müavinət verilməlidir. Millət vəkili "Unikal" qəzetinə açıqlamasında bildirib ki, Azərbaycanda 5-dən çox uşağı olan ailələrin sayı 6 minə çatmır. Bu da ümumilikdə uşaqlı ailələrin cüzi hissəsini təşkil edir.

"Azərbaycanda bir neçə il öncə 3 uşağı olan ailələrin sayı 260 minə, 4 və daha çox uşağı olanların sayı isə 126 minə yaxın idi. İndi bu tip ailələrdə azalma müşahidə olunur. Əksər ailələr iki uşaqla kifayətlənməli olur. Yeni qanun layihəsi ilə ümumilikdə 250-300 minə yaxın uşaq müavinətlə əhatə olunacaq. Belədə uşaqpulu alan ailələrin sayı 25-30 faizə çatacaq".

Razi Nurullayev gələcəkdə uşaqlara süni uşaq qidalarının pulsuz verilməsini də təklif edir. Deputat bildirir ki, ölkəmizdə uşaq qidaları baha olduğundan ailələrin çoxunun bu vitaminli qidaları alıb uşaqlarına verməyə maddi imkanı çatmır:" Üstəlik uşaq qidaları ölkəmizdə istehsal olunmadığından qiyməti günü-gündən bahalaşır. Körpə uşaqların qidalanması üçün dövlət öz köməyini göstərə bilər", deyə Razi Nurullayev bildirib.

Qeyd edək ki, hazırda beşdən çox uşağı olan ailələrə sosial müavinətin aylıq məbləği hər uşaq üçün 105 manatdır.

Azərbaycanda son illər həm uşaqların, həm də çoxuşaqlı ailələrin sayı azalır. Rəsmi məlumatlara görə, ölkədə 2023-cü ildə 14 yaşınadək uşaqların sayı 2 milyon 216 min nəfər olub. Ötən il uşaqların sayı 2022-ci il ilə müqayisədə 36 min nəfər azalıb.

Son 15 ildə isə dörd və daha çox uşaqlı ailələrin sayı 16 mindən çox azalıb. Son statistikaya görə, indi Azərbaycanda belə ailələrin sayı 110 min 470-dir.

Əmək və Əhalinin Sosial Müdafiəsi Nazirliyindən isə sorğumuza cavabda bildirilib ki, son beş ildə çoxuşaqlı ailələrə verilən müavinətin məbləği 3.5 dəfə artırılaraq 105 manata çatdırılıb: "Hazırda 12 minə yaxın uşaq üçün bu sosial müavinət alan qadınların sayı 2 min 600-dən çoxdur. Eyni zamanda, hər uşağın anadan olmasına görə birdəfəlik sosial müavinətin məbləği 500 manat müəyyən edilib. Aztəminatlı ailələrdə 1 yaşadək hər uşağa görə 100 manat müavinət nəzərdə tutulub. Bu müavinətin məbləğində son beş il ərzində 82 faiz artım olub.

İqtisadçı Natiq Cəfərli isə deyir ki, Azərbaycanda demoqrafik vəziyyət ildən-ilə pisləşir. Onun sözlərinə görə, ölkəmizdə çoxuşaqlı ailələrin sayı kəskin azalır.

"Azərbaycanda çoxuşaqlı ailələrin sayı il-ildən azalır. Çoxuşaqlı ailələrə dəstək olarsa belə ailələrin də gələcəkdə sayı artar. Amma bu yenə də çoxuşaqlı ailələrə veriləcək dəstəyin miqdarından asılı olacaq", deyə Natiq Cəfərli əlavə edib.

Xatırladaq ki, hazırkı qanunvericiliyə görə Azərbaycanda beş uşaqlı ailələr çoxuşaqlı ailələr sayılır. Lakin bir çox ölkələrdə, o cümlədən keçmiş SSRİ məkanındakı respublikalarda çoxuşaqlı ailə üç uşağı olan ailə hesab olunur. Onlardan biri Rusiyadır. Rusiyada çoxuşaqlı ailələr üçün vergi güzəştləri, ipoteka kreditinin ödənməsi üçün 450 min rubl (8 min 345 manat) verilməsi, pulsuz torpaq payın ayrılması, pul ödənişləri və digər imtiyazlar nəzərdə tutulur.

Fransada "Böyük ailə" adlanan dövlət proqramı çərçivəsində çoxuşaqlı ailələrə vergi güzəştləri və subsidiyalar təqdim olunur. Dörd uşaqlı ailələr, demək olar ki, vergi ödəmir.

İsveçdə çoxuşaqlı ailələrə müavinət verilir və uşaqların sayından asılı olaraq müavinət məbləği artır. Eyni zamanda, belə ailələrə ərzaq məhsulları üçün xüsusi talonlar verilir və dövlət çoxuşaqlı ailələrin məktəbəqədər müəssisələr üçün nəzərdə tutulmuş xərclərini özü ödəyir.

***Gülayə Mecid***

**Yazı Azərbaycan Respublikasının Medianın İnkişafı Agentliyinin ayırdığı maliyyə əsasında hazırlanır.**



# "Aztelekom"a "Ən Sürətli Sabit Şəbəkə" mükafatı təqdim edildi

***Martın 5-də dünyanın ən nüfuzlu mobil texnologiyalar sərgisi olan "Mobile World Congress"də (MWC) "Aztelekom" MMC-yə "Ən Sürətli Sabit Şəbəkə" mükafatı təqdim edilib. Bu nüfuzlu mükafat internetin sürət testi və təhlili üzrə qlobal lider olan "Ookla"® şirkəti tərəfindən verilib.***

"Unikal" xəbər verir ki, mükafatlandırma İspaniyanın Barselona şəhərində keçirilən konqres çərçivəsində "Aztelekom"un nümayəndə heyəti ilə görüş zamanı baş tutub. Mükafat 2024-cü ilin 3-cü və 4-cü rüblərində ölkə üzrə aparılmış sürət testlərinin nəticələrinə əsasən təqdim edilib. "Ookla"® şirkəti bu barədə 27 fevral 2025-ci il tarixində dərc etdiyi rəsmi hesabatında məlumat verib.

Hesabat ölkə üzrə 300 000-dən çox abunəçinin müxtəlif cihaz və tətbiqlər vasitəsilə keçirdiyi 4,5 milyona yaxın sürət testinə əsaslanıb. Testlərin nəticələrinə əsasən, ölkə üzrə ən yüksək yükləmə sürəti (Top Download Speed) 181.30 Mbit/s qeydə alındığı halda "Aztelekom" abunəçilərində bu göstərici 408.18 Mbit/s müəyyən olunub.

Qeyd edək ki, hər il GSMA tərəfindən təşkil olunan "MWC Barcelona" sərgisi süni intellekt, "IoT", 5G, "bulud" texnologiyaları və digər rəqəmsal innovasiyalar sahəsində dünyanın aparıcı şirkətləri, startapları və ekspertlərini bir araya gətirir.

# 38 küçə və prospekt üzrə svetoforlara "yaşıl dalğa" əmri verildi

***38 küçə və prospekt üzrə svetoforlara "yaşıl dalğa" əmri verilib. Bu barədə "Unikal"a Daxili İşlər Nazirliyi Nəqliyyatı İntelektual İdarəetmə Mərkəzindən məlumat verilib.***

Bildirilib ki, bir neçə gündür paytaxtın mərkəzi küçə və prospetlərində axşam saatlarında yaranan nəqliyyat sıxlığının müddəti və sıxlıq olan yolların sayı artıb. Müşahidələr göstərir ki, bu proses Martın 3-dən başlayıb və davam edəcəyi ehtimal olunur.

Təhlillər onu deməyə əsas verir ki, Ramazan ayı ilə əlaqədar bəzi vətəndaşlar şəxsi nəqliyyat vasitələrindən daha çox istifadəyə, xüsusilə də mərkəzi küçə və prospektlərdə yerləşən ictimai iaşə obyektlərində təşkil olunan iftar məclislərində iştirak etməyə üstünlük verirlər. Pik saatlarda yaranan nəqliyyat sıxlığının müddəti bu səbəbdən artmağa başlayır və nəticədə şəhərin digər yollarına da ( şəhərə giriş-çıxış yolları) təsir edir.

Nəqliyyatı İntellektual İdarəetmə Mərkəzi tərəfindən hansı tədbirlər görülüb?

Mərkəz tərəfindən nəqliyyat intensivliyini artırmaq məqsədilə 38 küçə və prospekt üzrə svetoforlara "yaşıl dalğa" əmri verilib. Zəruri tədbirlərin görülməsi üçün mütəmadi yol polisi əməkdaşları ilə informasiya mübadiləsi aparılıb.

# Parkinson xəstəliyindən əziyyət çəkən insanların sayı artacaq

***2050-ci ilə qədər dünyada Parkinson xəstəliyi ilə yaşayan 25,2 milyon insan olacaq.***

"Unikal" xəbər verir ki, bu barədə araşdırma BMJ jurnalında dərc olunub.

Ümumilikdə, hər 100 000 əhaliyə düşən Parkinson xəstəliyi ilə yaşayan insanların sayının 76%, yaş fərqlərinə uyğunlaşdırıldıqda isə 55% artacağı proqnozlaşdırılır. Bu nisbətlərin Şərqi Asiyada ən yüksək olacağı qeyd olunub.

Parkinson xəstəliyi ən sürətlə artan yayılma və əlilliyə malik nevroloji xəstəlikdir, lakin bir çox ölkədə və regionlarda gələcək yayılma proqnozları qeyri-müəyyən olaraq qalır.

Bu problemi həll etmək üçün tədqiqatçılar 2022-ci ildən 2050-ci ilə qədər 195 ölkə və ərazidə Parkinson xəstəliyinin yaşını, cinsini və yayılmasını, həmçinin Parkinson xəstəliyinin yayılmasında dəyişiklikləri şərtləndirən amilləri hesablamaq üçün 2021 Qlobal Xəstəlik Yükü Araşdırmasının məlumatlarından istifadə ediblər.

Onların hesablamalarına görə, 2050-ci ildə qlobal miqyasda Parkinson xəstəliyi ilə yaşayan insanların sayı bütün yaşlarda və hər iki cinsdən olan 25,2 milyon nəfər olacaq.

2050-ci ilə qədər Parkinson xəstəliyinə yoluxma hallarının xəstəliyin yayıldığı dünyanın bütün regionlarında, xüsusən də Sosial-Demoqrafik İndeks (SDI) şkalasının orta diapazonunda olan orta inkişaf etmiş ölkələrdə artacağı proqnozlaşdırılır.

***Gülayə Mecid***

# 2024-cü ildə Balakən rayonunun demoqrafik göstəriciləri belə olub

***Rayon əhalisinin sayı ötən ilin əvvəlindən 330 nəfər və ya 0,3 faiz artaraq 2025-ci il yanvar ayının 1-i vəziyyətinə 101019 nəfərə çatmışdır.***

Əhalinin 15857 nəfərini və ya 15,7 faizini şəhər, 85162 nəfərini və ya 84,3 faizini kənd sakinləri, 49656 nəfərini və ya 49,2 faizini kişilər, 51363 nəfərini və ya 50,8 faizini isə qadınlar təşkil edir.

**Əhalinin təbii hərəkətinin əsas göstəriciləri**

| | Nəfər | | | Əhalinin hər 1000 nəfərinə | | |
|---|---|---|---|---|---|---|
| | 2024-cü ildə | 2023-cü ildə | artım (+) azalma (-) | 2024-cü ildə | 2023-cü ildə | 2024-cü il 2023-cü ilə nisbətən, faizlə |
| Təbii artım | 312 | 469 | -157 | 3,1 | 4,6 | 67,4 |
| Doğulanlar | 898 | 1057 | -159 | 8,9 | 10,5 | 84,8 |
| Ölənlər | 586 | 588 | -2 | 5,8 | 5,9 | 98,3 |
| Nikahlar | 435 | 498 | -63 | 4,3 | 5,0 | 86,0 |
| Boşanmalar | 146 | 187 | -41 | 1,4 | 1,9 | 73,4 |

2024-cü il ərzində Ədliyyə Nazirliyinin qeydiyyat şöbələri tərəfindən rayonda 898 doğulan körpə qeydə alınmış və 2023-cü illə müqayisədə əhalinin hər 1000 nəfərinə bu göstərici azalaraq 10,5-dən 8,9-a düşmüşdür. Doğulan körpələrin 448 nəfəri və ya 49,9 faizi oğlan uşaqları, 450 nəfəri və ya 50,1 faizi isə qız uşaqları olmuşdur.

2024-cü il ərzində rayonda 586 ölüm halı qeydə alınmış və 2023-cü illə müqayisədə əhalinin hər 1000 nəfərinə bu göstərici azalaraq 5,9-dan 5,8-ə düşmüşdür.

2024-cü il ərzində Ədliyyə Nazirliyinin qeydiyyat şöbələri tərəfindən rayonda 435 nikah və 146 boşanma halları qeydə alınmışdır. 2023-cü illə müqayisədə əhalinin hər 1000 nəfərinə nikahların sayı 5,0-dən 4,3-dək və boşanmaların sayı 1,9-dan 1,4-dək azalmışdır.

2024-cü il ərzində Daxili İşlər Nazirliyinin və Dövlət Miqrasiya Xidmətinin müvafiq qurumları tərəfindən qeydə alınmış rayona daimi yaşamaq üçün gələn və rayondan gedənlərin miqrasiya saldosu müsbət 18 nəfər təşkil etmişdir.




***Balakən Rayon Statistika İdarəsinin rəis müavini Əsəbəli Alqayev***

# Növbəti buraxılış imtahanı keçiriləcək

***DİM martın 9-da tam (11 illik) orta təhsil səviyyəsi üzrə buraxılış imtahanı keçirəcək.***

"Unikal" xəbər verir ki, bu barədə DİM məlumat yayıb. Martın 9-da Dövlət İmtahan Mərkəzi tərəfindən Bakı şəhərinin Qaradağ, Binəqədi, Xətai, Suraxanı, Pirallahı, Yasamal, Abşeron (II hissə), Sumqayıt (II hissə), Naxçıvan MR, Gəncə (II hissə), Mingəçevir, Samux,Göygöl, Daşkəsən, Ağstafa, Qazax, Tovuz, Sabirabad, Saatlı, İmişli, Biləsuvar, Ucar, İsmayıllı, Ağsu, Zərdab, Masallı, Astara, Lerik, Ağcabədi, Beyləqan,Füzuli, Qax, Balakən, Zaqatala, Quba, Xızı, Qusar, Zəngilan (Ağalı kənd tam orta məktəbi), Cəbrayılda (M.Mehdizadə adına məktəb) tam (11 illik) orta təhsil səviyyəsi üzrə buraxılış imtahanı keçiriləcək. Martın 9-da Bakı şəhəri üzrə xüsusi məktəblərin (internat məktəbləri, cəzaçəkmə müəssisələrində yerləşən məktəblər), tədrisi gürcü dilində olan məktəblərin, H.Əliyev və C.Naxçıvanski adına hərbi liseylərinin şagirdləri də imtahan verirlər.



İmtahan saat 11:00-da başlanır. İmtahanın başlanmasına 15 dəqiqə qalmış - saat 10:45-də buraxılış rejimi başa çatır. Bundan sonra gələn iştirakçılar imtahan binasına buraxılmır.

İştirakçıların imtahan binasına rahat şəkildə daxil olması üçün binaya müxtəlif gəlmə vaxtları müəyyən edilib və imtahan iştirakçısının buraxılış vərəqəsində həmin vaxt göstərilib. Ona görə də imtahan binasına buraxılış vərəqəsində qeyd olunan vaxtda gəlmək lazımdır.

**Şagirdlər imtahana aşağıdakı sənədləri gətirməlidirlər:**

- İmtahana buraxılış vərəqəsi;
- Şəxsiyyəti təsdiq edən sənədin əsli:

a) Azərbaycan Respublikasının vətəndaşları (16 yaşı tamam olmayan iştirakçılar da daxil olmaqla) şəxsiyyət vəsiqəsini;

b) əcnəbilər və vətəndaşlığı olmayan şəxslər Dövlət Miqrasiya Xidməti tərəfindən verilmiş icazə vəsiqələrini, qaçqın statusu almış xarici vətəndaşlar və onların ailə üzvləri isə qaçqın vəsiqələrini;

- Şəxsiyyət vəsiqəsində şəkli olmayan iştirakçılar digər sənədlərlə yanaşı, təhsil müəssisəsi tərəfindən verilmiş və fotoşəkilləri yapışdırılmış arayışı (arayışa iştirakçının 3x4sm ölçülü şəkli yapışdırılır və şəkil möhürlə təsdiqlənir). Şagirdlər buraxılış imtahanı üçün təhsil müəssisəsi tərəfindən verilməli olan arayışı DİM-in saytından yükləyə bilərlər.

İmtahan iştirakçıları "İmtahana buraxılış vərəqəsi"ni internet vasitəsilə DİM-in saytından fevralın 26-dan etibarən çap edib götürə bilirlər.

Xatırladaq ki, imtahan keçirilən şəhər və rayonlarda ümumilikdə 255 imtahan binası, 4430 imtahan zalı ayrılıb. İmtahanların idarə olunmasına 255 ümumi imtahan rəhbəri, 721 imtahan rəhbəri, 5523 nəzarətçi, 773 buraxılışı rejimi əməkdaşı (mühafizə), 255 bina nümayəndəsi ayrılıb.

Martın 9-da keçiriləcək imtahanda 58732 şagirdin iştirakı nəzərdə tutulur.

İmtahanda 70 nəfər sağlamlıq imkanları məhdud (gözdən əlil, serebral iflic, eşitmə əngəlli və digər) şagird də iştirak edəcək. Bu abituriyentlərin rahat şəkildə imtahan verməsi üçün imtahan binalarında xüsusi zallar ayrılıb, orqanizmin funksiyalarının 81-100 faiz pozulmasına görə gözdən əlilliyi müəyyən edilmiş şəxslərə isə fərdi nəzarətçilər təyin edilib. Hərəkət məhdudiyyətli şagirdlərin bina və zala daxil olması və hərəkəti üçün də şərait yaradılıb. Bundan əlavə, sağlamlıq imkanları məhdud iştirakçılar üçün ayrılan nəzarətçilərlə xüsusi təlim keçirilib.

Hazırda imtahanlarda iştirak edəcək nəzarətçilər, imtahan rəhbərləri, mühafizə əməkdaşları ilə təlim-seminarlar keçirilir. Bütün imtahan binalarına baxış keçirilib, imtahan zallarında abituriyentlərin rahat şəkildə imtahan verməsi üçün zəruri şərait yaradılıb.

Təhlükəsizliyin təmin edilməsi məqsədilə imtahan mərkəzlərinə təkrar baxış da keçirilir və imtahan zalları, giriş-çıxış qapıları, binalar möhürlənməklə Daxili İşlər Nazirliyi Baş Mühafizə İdarəsinin əməkdaşlarının mühafizəsinə verilir.

# Gəncədə 41 yaşlı hamilə qadın öldü

***Gəncədə doğuş zamanı qadın ölüb.***

"Unikal"ın məlumatına görə, hadisə Gəncə şəhər Birləşmiş Xəstəxanasının tabeliyində Abbas Səhhət adına xəstəxanasının doğum şöbəsində qeydə alınıb. Belə ki, şəhər sakini 1984-cü il təvəllüdlü Zülfiyyə Yusibova 31 həftəliklə xəstəxanaya müraciət edib. Nəticədə doğuş zamanı ana və bətnindəki uşaq ölüb.



TƏBİB-dən "Unikal"a bildirilib ki, bu gün səhər saat 05:00 radələrində 1984-cü il təvəllüdlü qadın ailə üzvləri tərəfindən Gəncə Şəhər Birləşmiş Xəstəxanasının nəzdində olan Abbas Səhhət adına xəstəxanaya aqonal vəziyyətdə hospitalizasiya olunub.

Qeyd olunub ki, 30 həftəlik hamiləlik, dəqiqləşdirilməmiş tromboemboliya diaqnozları təyin edilən şəxsin reanimasiyon tədbirlərə baxmayaraq, ölüm faktı qeydə alınıb.

09_27 IYUl-QARA.qxd 3/6/2025 7:49 PM Page 14



# Vətən qəhrəmanları ilə öyünür

***21 yaşında özünü Vətənə fəda edən, adında böyük bir xalqın qəhrəmanlıq simvolunu yaşadan Davud Yalçın oğlu Abbasov Cəlilabad rayonunun Sabirabad kəndində boya-başa çatıb.***

İndi təkcə sabirabadlılar deyil, bütün Azərbaycan onunla öyünür. 44 günlük haqq savaşımızda Davudu Vətən, torpaq sevgisi döyüşə aparıb, o, da düşmənin kabusuna çevrilməklə tarix yazıb. Xalq öz qəhrəman oğluna ürəyində yer edib, dövlət də onu ölümündən sonra "Vətən uğrunda" medalına layiq görüb.

Davud Abbasov oxuduğu Uzuntəpə kənd məktəbində təmiz ürəkli, vicdanlı, qeyrətli bir oğul olaraq tanınıb. Həyatının mənasını Vətəninə, xalqına təmənnasız xidmətdə görüb. Birinci arzusu isə düşmən tapdağında olan Qarabağımız azad edib, sonra ali təhsil almaq olub. Odur ki, 2018-ci ildə məktəbi bitirib ordu sıralarına gedib. Davud hərbi xidmətini əsgər kimi Dövlət Sərhəd Xidmətinin Ermənistanla sərhəddə başlayıb. İgidliyi, mərdliyi, dürüstlüyü onu tez də yoldaşların, komandirlərin sevimlisinə çevirib. Xidmət zamanı Davud



düşmən təxribatının qarşısının alınmasında şücaət göstərərək, bir mülki vətəndaşımızın həyatını xilas edib. Həmçinin oxuduğu kursu müvəffəqiyyətlə bitirdikdən sonra gizir hərbi rütbəsi alıb.

Bir qayda olaraq düşmən tərəfindən əzəli yurd yerimiz Qarabağın işğalına qarşı barışmaz mövqeyini ortaya qoyub, məqamında məkrli düşmənə layiqli cavab verməkdən ötrü öyrənməkdən qalmayıb. Dəfələrlə xüsusi təyinatlı snayper kurslardan keçib. Dövlət Sərhəd Xidmətinin Çevik Hərbi Dəstəsinə qəbul olunub, buranı başa vurduqdan sonra ÇHD giziri kimi Vətənin keşiyində durub. Vətənə, torpağa məhəbbəti sayəsində ağır sınaqlı təlimlərdə uğur qazanıb. Xidmət etdiyi müddətdə bir dəfə olsun belə hər hansı nöqsana yol verməyib. Özündən yuxarı komandirlərin tapşırıqlarını vaxtında və yüksək keyfiyyətlə yerinə yetirib. Bütün etdikləri yalnız düşmənin başını əzib, işğalında qalan doğma torpaqları azad edib və qələbə ilə evə dönmək arzusundan irəli gəlib.

Sentyabrın 27-də başlayan Vətən müharibəsinə DSX ÇHD snayper gizir kimi qatılıb. Zəngilan, Füzuli, Cəbrayıl rayonlarının işğalından azad edilməsi əməliyyatlarında döyüş tapşırığını uğurla həyata keçirtməklə, dığalara layiqli cavab verib. Vətəni canından əziz tutan kiçik gizir Davud Abbasov 16 oktyabr 2020-ci ildə Cəbrayıl istiqamətində gedən döyüşlərdə vəzifə borcunu yerinə yetirərkən şəhid olub.

***Zəfər Orucoğlu, AJB üzvü***

# 2024-cü il ərzində Abşeron rayonunun "Sosial-iqtisadi inkişafı" haqqında statistika

***Bu gün sosial-iqtisadi sahədə dinamik inkişaf dövrünü yaşayan Azərbaycan qazandığı müvəffəqiyyətləri davamlı şəkildə genişləndirməkdədir.***

Ölkə iqtisadiyyatında xüsusi çəkiyə malik olan Abşeron rayonu Azərbaycanın gündən-günə yeniləşən simasını özündə əks etdirməklə yanaşı, sosial-iqtisadi sahədə qazanılan nailiyyətlərin miqyasını da genişləndirir. Öz iqtisadi artımı ilə Respublikamızda həmişə seçilənlər sırasında yer almağı bacaran, iqtisadi artım göstəricilərinə görə öndə gedən rayonlardan olan Abşeron bu gün inkişafının sürətli mərhələsini yaşayır. Belə ki, rayonda fəaliyyət göstərən sənaye müəssisələri tərəfindən il ərzində 960.8 milyon manatlıq sənaye məhsulu istehsal edilmiş və xidmətlər göstərilmişdir. Sənayenin inkişafında qeyri-dövlət sektorunun fəaliyyəti mühüm əhəmiyyət kəsb edir. Qeyri-dövlət subyektləri tərəfindən hesabat dövrü ərzində 853.4 milyon manatlıq məhsul istehsal edilmiş və xidmətlər göstərilmişdir ki, bu da ümumi məhsulun 88.8 faizi qədərdir.

Rayonun sosial-iqtisadi infrastruktur sahələrindən biri olan nəqliyyat sektoru da cəmiyyətin inkişafında mühüm rol oynayır. Hesabat ilində fiziki şəxslər tərəfindən yük və sərnişin daşınmasından əldə olunan gəlir 40.1 milyon manat olmuşdur.

Hesabatların təhlilindən məlum olur ki, bu dövrdə müəssisə və təşkilatlara, həmçinin əhaliyə faktiki



qiymətlərlə 30.6 milyon manatlıq və ya 2023-cü il ilə müqayisədə 17.5 faiz çox rabitə xidməti göstərilməklə rayonun iqtisadi inkişafında rabitə və informasiya sahəsi əhəmiyyətli yer tutur. Bu sahədə əldə olunan gəlirin 61.4 faizi qeyri-dövlət sektorunun payına düşür.

2024-cü il ərzində rayonda 28.2 milyon manatlıq investisiya qoyuluşu olmuşdur ki, bu investisiyanın 170.8 min manatı tikinti-quraşdırma işlərinin yerinə yetirilməsinə sərf edilmişdir.

Dövr ərzində əhaliyə pərakəndə ticarət və iaşə şəbəkələrindən 1456.0 milyon manata bərabər istehlak malları satılmış və iaşə xidmətləri göstərilmişdir ki, bu da ötən ilin müvafiq dövrünə nisbətən 2.4 faiz çoxdur. Əhaliyə göstərilən ödənişli xidmətin dəyəri isə 158.5 milyon manat olmuş, bunun da 58.1 milyon manatı dövlət, 100.4 milyon manatı isə qeyri-dövlət mülkiyyətinə məxsus təşkilatlar tərəfindən əldə edilmişdir.

2024-sü ilin məhsulu üçün ümumilikdə 1358,0 hektar sahədə bitkiçilik məhsulları əkilmişdir ki, ümumi əkin sahəsinin 365,5 hektarını və yaxud 26,9 faizini payızlıq taxıl bitkiləri, yəni buğda və arpanın əkin sahəsi təşkil etmişdir.

Rayonun kənd təsərrüfatı müəssisələrində, əhali və kəndli fermer təsərrüfatlarında 2025-ci il yanvar ayının 1-i vəziyyətinə 1850 baş iribuynuzlu mal- qara, o cümlədən 11483 baş inək və camış, 73042 baş isə qoyun və keçi mövcud olmuşdur. Təqdim olunan statistik məlumatlara və müvafiq hesablamalara görə diri çəkidə 10039 ton ət, 41695 ton süd istehsal edilmişdir.

İlkin məlumatlara əsasən 2025-ci il yanvar ayının 1-i vəziyyətinə Abşeron rayonunda iqtisadiyyatın bütün sahələrini əhatə etməklə muzdla işləyənlərin sayı 48602 nəfər olmuş, bundan 13556 nəfəri dövlət, 35046 nəfəri isə qeyri-dövlət sektorunu əhatə etmişdir. Rayon üzrə bir işçiyə düşən orta aylıq əməkhaqqı 749.4 manat təşkil etmişdir. Ötən ilin müvafiq dövrü ilə müqayisədə faktiki işləyənlərin orta sayı 9.2 faiz, orta aylıq əməkhaqqı isə 5.0 faiz artmışdır.

Rayonda sosial sahənin inkişafı da yüksək səviyyədə təmin olunur, quruculuq-abadlıq işləri davam etdirilir.

***Abşeron Rayon Statistika İdarəsinin rəisi Təvəkkül Mirzəyev***





# Aspirinin gözlənilməz faydası - Xərçəngin qarşısını ala bilər

***Alimlər aspirinin xərçəngin yayılmasının qarşısını ala biləcəyini kəşf ediblər.***

"Unikal" xəbər verir ki, bu barədə "BBC News" britaniyalı alimlərə istinadən məlumat dərc edib.

Heyvanlar üzərində aparılan təcrübələrdə onlar dərmanın immun sisteminin xərçənglə mübarizə qabiliyyətini artırdığını qeyd ediblər. Kembric Universitetinin komandası bunun maraqlı və gözlənilməz bir kəşf olduğunu və nəticədə xərçəng xəstələrinin dərmanı təyin etməsinə səbəb ola biləcəyini söyləyib, lakin bu hələ dəqiq elmi nəticə deyil və insanlara həbləri özbaşına qəbul etmələri tövsiyə edilmir.

Aspirin insult da daxil olmaqla təhlükəli daxili qanaxmaya səbəb ola bilər, buna görə də risklər balanslaşdırılmalıdır. Bu təsirin bütün xərçənglərə, yoxsa yalnız bəzilərinə aid olduğu da aydın deyil. Və bunlar hələ də heyvan tədqiqatlarıdır, buna görə də elm adamları bunun insanlara aid olduğunu düşünsələr də, hələ də təsdiqlənməlidir. Xərçəng riskini artıran Linç sindromlu bəzi xəstələrə artıq aspirin qəbul etmək tövsiyə olunur. Ancaq daha çox xəstəyə fayda verəcəyini görmək üçün hələ də müvafiq klinik sınaqlara ehtiyac olacaq. Onlar artıq həyata keçirilir", - KİV yazıb.

***Gülayə Mecid***

# Bakıda bu şadlıq evində mənşəyi məlum olmayan məhsullar aşkarlandı

***Nizami rayonu, Babək prospekti 76 ünvanında fəaliyyət göstərən, fiziki şəxs Dadaşov Eldar Ağa Zəki oğluna məxsus "Sərin" şadlıq evində AQTA əməkdaşları yoxlama keçirib.***

Agentlikdən "Unikal"a verilən məlumata görə, baxış zamanı obyektdə sanitar-texniki və sanitar-gigiyenik tələblərin pozulduğu, temperatur rejiminə əməl edilmədiyi, həmçinin mənşəyi məlum olmayan heyvan mənşəli məhsulların istehlaka təqdim edildiyi aşkarlanıb. Emal edilmiş məhsullardan və ətlərdən nümunələr götürülərək laborator müayinələrə cəlb olunub.

Faktla bağlı sahibkar barəsində inzibati protokol tərtib edilməklə qanunvericiliyə uyğun zəruri tədbirlər görülüb. Araşdırmalar davam etdirilir.

# Məhkum olunan şəxsə aid 21 kq narkotik aşkarlandı

***Məhkum olunan şəxsə aid 21 kq narkotik aşkarlanıb.***

Bu barədə "Unikal"a Penitensiar xidmətdən məlumat verilib.

Bildirilib ki, Ədliyyə Nazirliyinin Penitensiar xidmətinin əməliyyat aparatının Daxili İşlər Nazirliyinin əməkdaşları ilə birgə keçirdiyi əməliyyat-axtarış tədbiri nəticəsində Ablasanov Seyran Tehran oğluna məxsus ümumi çəkisi 21 kiloqram 550 qram olan qurudulmuş marixuana Xəzər rayonu, Zirə qəsəbəsi ərazisində bağlar massivindəki yarımtikilidə aşkar edilərək götürülüb.

Faktla bağlı araşdırma aparılır.

# NATO ölkələri kəşfiyyat məlumatlarını bölüşməkdən çəkinirlər - KİV

***Rusiya və ABŞ arasında münasibətlər normallaşdıqca NATO kəşfiyyat məlumatlarının mübadiləsi baxımından bir-birinə daha az güvənməyə başlayıb.***

"Unikal" xəbər verir ki, bu barədə Amerikanın "Politico" qəzeti yazır.

"Hərbi alyansın üzvləri artıq məxfi məlumatlarla bir-birlərinə etibar etməkdə problem yaşayırdılar. Vəziyyət daha da pisləşib", - nəşrin bəyanatında deyilir.

Qeyd olunur ki, Şimali Atlantika Alyansı çərçivəsində məxfi kəşfiyyat məlumatlarının mübadiləsi uzun müddətdir ki, blokun Mərkəzi və Şərqi Avropa dövlətlərinə inamsızlığı səbəbindən çətinləşib. Bu, Macarıstan və Slovakiyanın tutduğu "Rusiyayönlü mövqelər" səbəbindən Ukraynada xüsusi hərbi əməliyyat başlayandan sonra güclənib.

***Gülayə Mecid***

# "Bakıdakı ermənilər Paşinyan hökumətindən qat-qat azaddır" - Eks-nazir

***"Bako Saakyan və Bakı həbsxanasındakı digərləri sizdən (Ermənistan hökumətindən - red.) qat-qat azad və müstəqildirlər".***

"Unikal" xəbər verir ki, bu barədə Ermənistanın keçmiş xarici işlər naziri Vardan Oskanyan açıqlayıb. O, Paşinyan hökumətini qorxaq adlandırıb: "Mən hiss edirəm ki, bizim hakimiyyət öz mövqelərini saxlamaq və gücləndirmək, yaxud öz fəaliyyətsizliyini gizlətmək üçün bu məsələni daxili siyasi məsələyə çevirmək istəyir. Bu məsələ hər şeydən əvvəl dar maraqlardan ibarətdir".

***Ağarza Elçinoğlu***

# Erməni bloqer Azərbaycandan sığınacaq istədi

***Erməni bloqer və aktivist İşxan Verdyan Prezident İlham Əliyevə müraciət edərək Azərbaycandan siyasi sığınacaq istəyib.***

"Unikal" xəbər verir ki, Verdyan bu barədə "Telegram" kanalında yazıb.

Bloqer bildirib ki, Qarabağı Azərbaycanın tərkib hissəsi kimi tanıdığına görə Ermənistanda onun barəsində cinayət işi açılıb:

"Hörmətli cənab Prezident, Nəzərinizə çatdırım ki, Qarabağı açıq şəkildə Azərbaycan tərkib hissəsi kimi tanıdığım üçün Ermənistanda mənə qarşı cinayət işi açılıb. Ermənistan hakimiyyəti mənə ömürlük həbs cəzası vermək istəyir. Onu da nəzərinizə çatdırım ki, Ermənistana qayıtmağım istər-istəməz həbsimə gətirib çıxaracaq və barəmdə elan olunmuş beynəlxalq axtarış Ermənistandakı həbsxanadan başqa istənilən yerdə mənə qapı bağlayır. Mövcud reallıqları nəzərə alaraq və qaçılmaz repressiyalarla bağlı səbəblərə görə Azərbaycanda siyasi sığınacaq verməniz xahiş edirəm".

***Gülayə Mecid***

# "Makronun bu çıxışını Rusiya üçün təhlükə hesab edirik" - Lavrov

***Rusiyanın xarici işlər naziri Sergey Lavrov Fransa prezidenti Emmanuel Makronun çıxışını şərh edib.***

"Unikal" xəbər verir ki, bu barədə Rusiya KİV məlumat yayıb. XİN rəhbəri bunu Rusiya üçün təhlükə kimi qiymətləndirib: "Moskva Makronun nüvə ritorikasını Rusiya üçün təhlükə hesab edir. Fransa prezidentinin Rusiya və Ukrayna ilə bağlı açıqlamaları əsəbidir". O, Makronun Rusiyanın Avropaya qarşı müharibəyə hazırlaşması ilə bağlı ittihamını rədd edib: "Bu, reallığa əsaslanmayan cəfəngiyyatdır".

***Ağarza Elçinoğlu***

# "Ukraynada geniş yayılmış korrupsiya var" - Fitso

***Slovakiyanın baş naziri Robert Fitso Ukraynaya yardım olaraq ayrılan pulun yarısının oğurlandığını bildirib.***

"Unikal" xəbər verir ki, o, bu barədə Avropa məsələləri üzrə komitənin iclası zamanı bildirib.

"Pulun yarısı oğurlanıb. Biz Avropa Şurasında Ukraynadakı korrupsiya məsələsini yenidən qaldıracağıq. Axı biz pul tökürük, Aİ pul tökür və onun böyük bir hissəsi sadəcə olaraq Ukraynada itib ", - o qeyd edib. Fitso həmçinin vurğulayıb ki, Volodimir Zelenski münaqişənin davam etdirilməsində maraqlıdır, o cümlədən Ukrayna hazırda kənardan maliyyələşir.

***Gülayə Mecid***

# "Bu son xəbərdarlığımdır!" - Tramp onları hədələdi

***ABŞ prezidenti Donald Tramp HƏMAS-ı bütün girovları dərhal azad etməyə çağırıb, əks təqdirdə onları ciddi nəticələrlə hədələyib.***

"Unikal" xəbər verir ki, o, bu barədə "Truth Social" sosial şəbəkəsindəki səhifəsində yazıb.

"Bütün girovları indi buraxın! Əks halda sizin üçün hər şey bitdi. Qarşıda sizi parlaq gələcək gözləyir, amma girov saxlamağa davam etsəniz yox. Ağıllı qərar verin - ya indi buraxın, ya da qiymətini ödəyin, bu son xəbərdarlığımdır", - Tramp qeyd edib.



Xatırladaq ki, martın 5-də Amerikanın "Axios" portalı ABŞ nümayəndələrinin Qəzza zolağında münaqişəyə son qoyulması və girovların azad edilməsi ilə bağlı Fələstinin HƏMAS hərəkatı ilə gizli danışıqlar apardığını bildirib.

Bu il yanvarın 19-da Qəzza zolağında atəşkəs qüvvəyə minib. Atəşkəs 42 gün davam etməli idi. Bu müddət ərzində 33 girov İsrailə qaytarılmalı, yəhudi dövləti isə 1000-ə yaxın fələstinli məhbusu azad etməli idi. Şənbə günü, martın 2-də atəşkəsin birinci mərhələsi başa çatıb, lakin İsrail və HƏMAS hələ də ikinci barədə razılığa gələ bilməyiblər.

***Gülayə Mecid***

# "Bütün infrastrukturu açmağa hazırıq" - Mirzoyan

***Ermənistan regional kommunikasiyaların blokunun açılması məsələsi də daxil olmaqla, üzərinə götürdüyü öhdəliklərdən heç birini pozmayıb.***

"Unikal" xəbər verir ki, bunu Ermənistanın xarici işlər naziri Ararat Mirzoyan parlamentdə çıxışı zamanı açıqlayıb.

Mirzoyan vurğulayıb ki, Ermənistan bütün infrastrukturu açmağa hazırdır. O həmçinin qeyd edib ki, Türkiyə ilə əməkdaşlıq Ermənistan üçün də vacibdir, xüsusilə Gümrü-Qars dəmir yolunun bərpası məsələsində. Bundan başqa, Ermənistan Azərbaycanın infrastrukturu vasitəsilə Mərkəzi Asiya və Çinlə əlaqə yaratmaq imkanında maraqlıdır.

***Ağarza Elçinoğlu***



# Rusiya aylar sonra ABŞ-yə səfir təyin etdi

***Rusiya Xarici İşlər Nazirliyinin Şimali Atlantika Departamentinin direktoru Aleksandr Darçiyevi ABŞ-yə səfir təyin edilib.***

"Unikal" xəbər verir ki, bu barədə Rusiya prezidenti Vladimir Putin sərəncam imzalayıb.

"Aleksandr Nikitiç Darçiyev Rusiya Federasiyasının Amerika Birləşmiş Ştatlarında fövqəladə və səlahiyyətli səfiri təyin edilsin" , - sənədin mətnində deyilir.



Xatırladaq ki, ötən ilin oktyabrında Rusiya prezidenti Vladimir Putin Moskvanın ABŞ-dəki səfiri Anatoliy Antonov geri çağırıb. Antonov 2017-ci ildə bu vəzifəyə təyin edilmişdi.

***Gülayə Mecid***

# Ermənistan Aİ-yə qoşulma prosesindən geri çəkilir

***Ermənistan Parlamentinin Avropaya İnteqrasiya Komitəsi tərəfindən Avropa İttifaqına üzvlük prosesinin başlanması ilə bağlı layihə ikinci oxunuşda səsvermə üçün iki aya qədər təxirə salınıb.***

"Unikal" xəbər verir ki, bu barədə erməni KİV məlumat yayıb.

Buna səbəb kimi komitənin məsələnin Şuranın gündəliyinə daxil edilməsi üçün müzakirəni təşkil etməyə və səsverməyə vaxt tapmaması olub.

Məlumata görə, Nikol Paşinyan bu mövzudan tamamilə çəkilməyə meyllidir və gələcəkdə layihə parlamentdə müzakirəyə çıxarılmayacaq. Xüsusilə ABŞ-də keçirilən prezident seçkiləri ilə bağlı geosiyasi hadisələri anlamaq üçün onlara vaxt lazım olub.

***Ağarza Elçinoğlu***





# Ermənistan bu tarixdən ehtiyatda olan hərbçiləri toplayacaq

***Aprelin 1-dən iyunun 13-dək Ermənistanda ehtiyatda olan hərbçilərin növbəti təlim-məşq toplanışı keçiriləcək.***

"Unikal" xəbər verir ki, bu barədə qərar Ermənistan hökumətinin bugünkü iclasında qəbul edilib.

Toplanışın hər bir iştirakçısı müəyyən edilmiş qaydada 25 təqvim günü ərzində təlim keçəcək.

# "Formula 1" Azərbaycanla bağlı quraşdırma işlərinə başlanıldı




***Bu il keçiriləcək "Formula 1" üzrə Azərbaycan Qran-prisinə hazırlıq çərçivəsində paddokun yenidən qurulmasına başlanıb.***

Bu barədə Bakı Şəhər Halqası Əməliyyat Şirkətindən məlumat verilib.

Paddok həmişəki kimi Neftçilər prospekti, Hökümət evinin qarşısında quraşdırılır.

Bakı Şəhər Halqası Əməliyyat Şirkəti piyadaların və sürücülərin ehtiyatlı olmalarını xahiş edir, şəhər sakinlərinə göstərdikləri anlayışa görə təşəkkürünü bildirir.

Qeyd edək ki, Azərbaycan Qran-prisi sentyabrın 19-21-i aralığında baş tutacaq.

# Alpinizm Federasiyasının dəstəyi ilə idman dırmanması yarışı keçirildi

***4 mart 2025-ci il tarixində Gənclər və İdman Nazirliyinin təşkilatçılığı, Azərbaycan Alpinizm Federasiyasının dəstəyi ilə "İdman həftəsi" çərçivəsində 4 uşaq evinin iştirakı ilə idman dırmanması yarışı keçirilib.***

"Unikal" xəbər verir ki, Azərbaycan Alpinizm Federasiyasının idman dırmanma zalında keçirilən yarışı Federasiyanın idmançılarından ibarət hakimlər



qrupu idarə edib.

Əyləncəli idman dırmanması yarışında oğlanlar arasında I yeri 2 saylı uşaq evi (Bakı), II yeri 1 saylı uşaq evi (Bakı), III yeri Gəncə şəhər uşaq evi tutub.

Qızlar arasında isə I yerin qalibi 1 saylı uşaq evi (Bakı), II yerin qalibi 2 saylı uşaq evi (Bakı), III yerin qalibi Gəncə şəhər uşaq evi olub.

Yarışın sonunda qaliblər mükafatlandırılıb.

# "Neftçi"nin "Kəpəz"ə qarşı oyunu biabırçılıq idi" - Mircavadov

***"Neftçi"də idarəçilər kimlərdir, bilinmir. Bilmirəm, bəlkə də yaxşı idarə edirlər, amma alınmır. Çox yaxşıdır ki, "Neftçi" yerli mütəxəssislə çalışır. Son illər çox əcnəbi məşqçilər gəldi, getdi. Bu şəkildə nə komanda qurmaq olar? Heç bir şey. Samir Abasova şərait yaratmaq və vaxt vermək lazımdır".***

Bu sözləri Azərbaycanın Əməkdar məşqçisi Ağasəlim Mircavadov Misli Premyer Liqasının 25-ci turunda "Neftçi"nin "Kəpəz"ə məğlubiyyətini (0:1) şərh edərkən deyib.

QOL.az saytına danışan təcrübəli mütəxəssis deyib ki, onun bildiyinə görə, "Neftçi"də transfer işlərinə baş məşqçi qarışmır, bu işlə klubda bir qrup məşğuldur. Amma onlar baş məşqçi ilə sıx əlaqədə olmalıdırlar.

A.Mircavadov "Neftçi"yə gətirilən legionerlərin səviyyəsindən də gileylənib: "Sizə bir nümunə göstərəcəm. "Neftçi"də Yeqor Boqomolski adında futbolçu var. Demək olar ki, meydanda ancaq hərəkət edirdi. Məşqçilər isə onu harda gəldi oynadırdılar. Amma heç yerdə oyunu alınmırdı. "Neftçi"nin əksər legioneri belədir. Bir də komanda daxilində yaxşı abhavanın olması vacibdir ki, bunu da məşqçilər korpusu düzəltməlidir. Kənardan heç bir müdaxilə olmamalıdır".

A.Mircavadov "Neftçi"nin "Kəpəz"ə qarşə dünənki oyununu isə biabırçılıq adlandırıb: "Neftçi" üçün ürəyim ağrıyır. Çünki o klubda böyümüşəm, oynamışam, işləmişəm. Komandanın dünənki oyunu biabırçılıq idi. Bu haqda heç danışmaq istəmirəm. Danışmaqla da düzələn deyil. Dünən "Kəpəz" futbolçuları daha istəkli idi. Ona görə də qalib gəldilər. Adam bilmir ki, "Neftçi" haqda nə danışsın. İndi ümidləri təkcə kuboka qalıb. Kubokda da yaxşı nəticə üçün Premyer Liqada normal çıxış etməlisən. Durum çox acınacaqlıdır. Avrokuboklara da çıxsalar, onlar üçün həddindən artıq ağır olacaq. Söhbət "Kəpəz"ə məğlubiyyətdən getmir. Oyun sistemini inkişaf etdirməlidirlər. Samir Abasovun əlində hələ ki, elə futbolçu yoxdur ki, lazım olanda oyunu dəyişsin. Legionerlər komandada "açıla" bilmir. Maraqlı olan budur. Bunun cavabını tapmaq lazımdır".

"Neftçi"nin baş məşqçisi Samir Abasov "Kəpəz"lə oyundan sonra mətbuat konfransında komandanın gənc hücumçusu Ağadadaş Salyanskininin oyununu tənqid edib. "Birinci hissədən sonra soyunub-geyinmə otağında dedim ki, Ağa, elə et, hiss etsinlər ki, sən də bizim hücumçumuzsan" - deyə baş məşqçi bildirib.



A.Mircavadov gənc futbolçunu bu formada tənqid etməyin düzgün olmadığını bildirib: "Ola bilər ki, Samir hirslənib, amma hər bir oyunçunu qorumaq lazımdır. Əgər komanda bir ailədirsə, bütün baş verənlər orda da qalmalıdır. Əsasən də gənc oyunçuları qorumaq lazımdır. Çünki o oyunçular bizə lazımdır. Ağadadaşı yaxşı tanıyıram. U-21 millisinin heyətində çox səfərlərdə olmuşuq. Normal futbolçudur, istəyi həddindər artıqdır, keyfiyyəti də var. Bizdə son illərdə Ağadadaş kimi ucaboy mərkəz hücumçusu olmayıb. Ən asası da odur ki, Ağadadaş "Neftçi"nin akademiyasından gəlib. Hər bir məşqçinin oyunçuya yanaşması fərqlidir. Mənim Samirin işinə qarışmaq fikrim yoxdur. Amma mən bu barədə fərqli düşünürəm".

***Ramiq Ağaməmmədov***

# FİFA builki mükafat fondunu açıqladı



***Cari ildə keçiriləcək Klublararası Dünya Çempionatının mükafat fondu bir milyard dollar təşkil edəcək.***

"Unikal" xəbər verir ki, bu barədə Beynəlxalq Futbol Federasiyasının (FIFA) mətbuat xidməti məlumat yayıb.

Turnir 2025-ci il iyunun 15-dən iyulun 13-dək ABŞ-da keçiriləcək. Müsabiqənin dörd ildən bir keçirilməsi planlaşdırılır.

Klublararası Dünya Çempionatı ilk dəfə 32 komandanın iştirakı ilə təşkil olunacaq. Yarışda Avropadan 12 klub (o cümlədən Çempionlar Liqasının son 4 qalibi, həmçinin klub reytinqində ən yaxşı 8 komanda), Cənubi Amerikadan 6, Şimali Amerika, Afrika və Asiyadan 4, Okeaniyadan 1 klub və ev sahibi ölkənin təmsilçisi mübarizə aparacaq.

# "Liverpul" PSJ-yə, "Barselona" "Banfika"ya qalib gəldi



***UEFA Çempionlar Liqasında 1/8 final mərhələsinin ilk oyunlarına yekun vurulub.***

"Unikal" xəbər verir ki, son oyun günündə də 4 qarşılaşma keçirilib.

Günün ilk matçında İtaliya "İnter"i Niderlandda "Feyenoord"a 2 cavabsız qolla qalib gəlib.

İngiltərənin "Liverpul" komandası Fransada PSJ-nin qonağı olub. Bu görüşdə Mersisayd təmsilçisi 1:0 hesablı qələbə qazanıb.

"Benfika" Portuqaliyada İspaniya nəhəngi "Barselona"ya 0:1 hesabı ilə uduzub. Almaniya "Bavariya"sı isə öz meydanında "Bayer"in qapısından 3 top keçirib.

UEFA Çempionlar Liqası
1/8 final, ilk oyunlar

**5 mart**

21:45. "Feyenoord" (Niderland) - "İnter" (İtaliya) - 0:2
00:00. "Bavariya" (Almaniya) - "Bayer" (Leverkuzen, Almaniya) - 3:0
00:00. PSJ (Fransa) - "Liverpul" (İngiltərə) - 0:1
00:00. "Benfika" (Portuqaliya) - 0:1 "Barselona" (İspaniya)

Qeyd edək ki, bu mərhələnin cavab oyunları martın 11-12-də təşkil olunacaq.

# Rövşən Hüseynli millidən ayrıldı



***Təlim-məşq toplanışını davam etdirən Azərbaycanın futzal millisinin heyətində dəyişiklik edilib.***

Bu barədə Azərbaycan Futzal Federasiyasının mətbuat xidməti məlumat yayıb.Məşq prosesində zədələnən Rövşən Hüseynli komandanın düşərgəsindən ayrılıb. Hazırda toplanışda ikisi qapıçı olmaqla, 15 futzalçı iştirak edir. Səfərə onlardan 14-ü gedəcək.

Qeyd edək ki, martın 11-də Afinada keçiriləcək Yunanıstan - Azərbaycan oyunu Bakı vaxtı ilə saat 21:00-da başlayacaq.

# ÇL-də həftənin ən yaxşısı adına namizədlər



***UEFA Çempionlar Liqasında 1/8 final mərhələsinin ilk oyunlarından sonra həftənin ən yaxşı futbolçusu adına namizədlər bəlli olub.***

QOL.az xəbər verir ki, bu ada Rodriqo ("Real"), Harri Keyn ("Bavariya"), Martin Edeqor ("Arsenal") və Alisson Bekker ("Liverpul") namizəddir.

Qeyd edəkl ki, qalib UEFA-nın saytındakı səsvermə nəticəsində müəyyənləşəcək.